RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 256 (8279) ÇƏRŞƏNBƏ AXŞAMI, 19 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İnamdan başlanan işıqlı gələcək

**Xalq və ümumən bəşəriyyət üçün tarixi əməllərə imza atmış siyasi liderlər, dövlət başçıları bütün digər xidmətləri ilə yanaşı, həm də bütöv nəsillər formalaşdırırlar. Bu nəsillərin hansı ruhda böyüyüb tərbiyələnməsi, hansı ideyaların daşıyıcısı olması liderlərin onlar üçün yaratdıqları örnəklərdən, həyat və fəaliyyətləri ilə təlqin etdikləri prinsiplərdən çox asılıdır.**

Noyabrın 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak edirdilər. Aksiyanın ən əlamətdar cəhətlərindən biri, iştirakçıların, demək olar ki, hamısının gənclərdən ibarət olması idi. Onların çoxu yeni minillikdə doğulub formalaşmış, müstəqil, güclü, gündən-günə inkişaf edib qüdrətlənən Azərbaycanda dünyaya göz açmış gəncliyin layiqli təmsilçiləridir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbəri olduğu IDEA İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən ekoloji aksiyada çox maraqlı tarixi mənzərə canlanırdı: cənab İlham Əliyevin timsalında zəmanəsinin ən parlaq liderlərindən biri və onun yetişdirdiyi işıqlı gənclik. Birgəlikdən, sevgi və ehtiramdan, ümiddən, inamdan başlanan işıqlı gələcək...

Bu mənzərənin yaratdığı xoş təəssüratlar, müsbət enerji belə bir həqiqətə də işıq salır ki, əslində dünyanın gəlib çatdığı bugünkü inkişaf mənzərəsi sülhü, əmin-amanlığı, tərəqqini, insanların rifahını, ətraf mühitə qayğını, bəşəriyyətin xoşbəxt gələcəyi naminə birgə əməkdaşlığı gənc nəslə ali bir missiya kimi aşılayır və onun müsbət nəticələrini görür.

Bu gün dünyanın ayrı-ayrı ölkələrində aşırı millətçilik, ksenofobiya, dini radikalizm, terror kimi prinsiplərlə düşüncələri zəhərlənən gənclik və hər fürsətdə onları ziyanlı ideologiyalara "yoluxduran" siyasət dəllallarının tarix qarşısındakı böyük məsuliyyətsizliyi var. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı gənclər siyasətinin, böyüməkdə olan nəslə ötürdüyü ali dəyərlərin yaxın-uzaq ölkələrdəki müəyyən dövlət rəhbərlərinin davranışları ilə müqayisəsində bu iki fərqi aydın görə bilərik.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasətinin davamı olaraq Prezident İlham Əliyev Azərbaycan gəncliyini vətənə sevgi qədər həm də bəşəri dəyərlərə hörmət ruhunda yetişdirir. İnsan üçün ən nəcib davranışların birgəyaşayış qaydalarını qorumaqdan, başqalarının qayğısına qalmaqdan, dövlətə, cəmiyyətə fayda verməkdən, nəcib əməllərlə dünyanı gözəlləşdirməkdən, sadəlikdən, təvazökarlıqdan, dünyanın ən zəngin sərvəti kimi daim bilik və bacarıqlara, fərdi inkişafa can atmaqdan ibarət olduğunu anladır.

Bu gün Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir, ölkədə gedən proseslərin önündə durur, respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı xarici dövlətlərdə dəfələrlə yüksəlir. Gənclər mədəniyyətlərarası dialoqun aparılmasında, beynəlxalq əməkdaşlığın inkişafında fəallıq göstərir. Bunun nəticəsində müxtəlif dövlətlərdə və beynəlxalq qurumlarda ölkəmiz daha yaxından tanınır, onun tarixi, mədəniyyəti və bugünü haqqında geniş məlumatlar verilir.

Biz dünyanın ən gənc əhali göstəricilərindən birinə malikik. Əhalinin yarıdan çoxunun yaşı 30-dan aşağıdır. Respublikada 300-dən çox gənclər təşkilatı fəaliyyət göstərir. Gənclər və İdman Nazirliyi, Gənclər Fondu hər il bu təşkilatların təhsil, mədəniyyət, incəsənət, elm və digər sahələr üzrə həyata keçirdikləri layihələrin dəstəklənməsi üçün maliyyə ayırır və onların beynəlxalq fəaliyyətini dəstəkləyir. Ölkəmizdə gənclər siyasətinin geniş infrastrukturu var. Belə ki, 40-dan artıq rayon və şəhərdə olan sosial xidmət müəssisələri - Gənclər evləri, mərkəzləri fəaliyyət göstərir.

Dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsində dövlət başçısına dəstək verən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə, tarixən xalqımıza xas xeyirxahlıq, alicənablıq, başqa mədəniyyətlərə hörmət, tolerantlıq mühitində yetişməsinə böyük kömək göstərir. Gəncliyimizə zamanın ruhuna uyğun keyfiyyətli təhsil almaq, müxtəlif sahələrdə öz potensialını reallaşdıraraq faydalı təcrübə toplamaq imkanı yaradır. Bu layihələrin icrasına cəlb olunmuş minlərlə Azərbaycan gəncinin iştirakı ilə ölkəmizdə könüllülük hərəkatı formalaşıb, gözəl sosial mühit, əməkdaşlıq çevrəsi qurulub.

*Ardı 3-cü səh.*

## Naxçıvan yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının inkişafının daim diqqət mərkəzində olduğunu bildirən **Prezident İlham ƏLİYEV** dedi:

- Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir.

Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir. Hazırda düşmənlə sərhəddə vəziyyət necədir və hərbi potensialın möhkəmləndirilməsi üçün əlavə hansı işlər görülməlidir?

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV** dedi:

- Çox sağ olun, cənab Prezident. Bütün bunlar hamısı Sizin ölkəmizə uğurlu rəhbərliyinizin, Ümummilli Liderimizin yolunu uğurla davam etdirməyinizin nəticəsidir. Bütün bunlara görə muxtar respublika sakinləri adından Sizə minnətdarlığımızı bildiririk.

*Ardı 2-ci səh.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü münasibətilə xalqımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 17 noyabr - Milli Dirçəliş Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bu gün - 17 Noyabr - birlik və həmrəylik, Vətənə və milli dövlətçiliyə sədaqət kimi nəcib hissləri təcəssüm etdirən Milli Dirçəliş Günüdür. Bu bayram münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edir, hər bir soydaşımıza cansağlığı, sevgi və səadət arzulayıram! Qoy xalqımızın həmrəyliyi, dövlət müstəqilliyimiz, ölkəmizdə hökm sürən sülh və əmin-amanlıq əbədi olsun!".

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Litva Respublikasının Sosial Təminat və Əmək Nazirliyi arasında əmək və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Litva Respublikasının Sosial Təminat və Əmək Nazirliyi arasında əmək və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında 2019-cu il oktyabrın 3-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Litva Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*



## Kənd təsərrüfatı məhsullarının istehsalı artır, keyfiyyəti yüksəlir

### Xaricdən gələn sifarişlərin çox hissəsi bu sektora aiddir

Kənd təsərrüfatında aparılan dərin islahatlar müsbət nəticə verir. Belə ki, bu sahədə istehsal getdikcə artır, məhsulun keyfiyyəti yüksəlir. Bu, fermerlərə dövlət tərəfindən göstərilən qayğı nəticəsində mümkün olub.

Kənd təsərrüfatı sahəsində çalışan sahibkarlar torpaq vergisindən savayı bütün növ vergilərdən azad edilib. Üstəlik, onlara istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə subsidiyalar verilir.

*Ardı 6-cı səh.*

## Dinlərarası dialoq zamanın tələbidir

### Azərbaycan bu işə mühüm töhfə verir

Bəşəriyyət tarixi boyunca bir-birindən mürəkkəb mərhələlərdən keçmişdir. XXI əsr başlar-başlamaz bəşər övladı yenə də narahatlıq hissi keçirir: supergüclər dünyaya nəzarət uğrunda mübarizə aparır, kiçik ölkələr böyük dövlətlərin maraqlarına qurban gedir, "mənəm-mənəmlik" planetin bütöv regionlarını qan gölünə çevirir, alovlanmış silahlı münaqişələr yüz minlərlə həyatı puç edir.

Bu faciəvi vəziyyəti nizama salmaq üçün irəli sürülən təşəbbüslər qulaqardına vurulur, qanla işləyən dəyirman isə fırlanmaqda davam edir.

Müasir dünyada cərəyan edən mürəkkəb ictimai-siyasi-iqtisadi proseslər, sülh və təhlükəsizliyə təhdidlərin artması fonunda bəşəriyyətin gələcəyinə biganə qalmayan ölkələrin səylərini birləşdirməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və dinlərarası dialoqun möhkəmləndirilməsi təxirəsalınmaz vəzifə kimi ortaya çıxır. Belə ki, müxtəlif dinləri, məzhəbləri, mədəniyyətləri bir-birinə qarşı qoymaq meyilləri nəinki özünü göstərir, hətta bir çox hallarda real fakt kimi ortaya çıxır. Ksenofobiya, islamofobiya, xristianofobiya təzahürləri getdikcə təhlükəli hal alır. Hadisələrin bu məcrada inkişafının dayandırılmasında dini liderlər əhəmiyyətli rol oynaya bilərlər. Hazırkı tarixi mərhələdə beynəlxalq aləmdə müşahidə olunan gərginliyin azaldılmasında dini rəhbərlərin birləşdirici rolunu artırmağa ehtiyac duyulur, çünki onların səsini eşidənlər daha çoxdur. Odur ki, ayrı-ayrı ölkələr hərəkətə keçib dini liderləri müxtəlif platformalarda bir araya gətirir, onların səsinin, çağırışlarının fərqli dini inanclara mənsub insanlara çatdırılmasında yardımçı olur.

Belə bir mühüm missiyanı həyata keçirən ölkələrdən biri Azərbaycandır. Bu da təsadüfi deyil. Azərbaycanda dini, milli tolerantlıq ən yüksək səviyyədədir, din-dövlət münasibətləri, millətlərarası münasibətlər digər ölkələrə nümunədir.

*Ardı 6-cı səh.*

# Naxçıvan yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir



*Əvvəli 1-ci səh.*

Bu günlər sərhədlərdə məhəlli münaqişələr baş verir, ancaq buna baxmayaraq, Sizin rəhbərliyinizlə, qayğınızla muxtar respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib, Əlahiddə Ümumqoşun Ordusu korpusdan Əlahiddə Ümumqoşun Ordusuna qədər yol keçibdir. Bu da Sizin qayğınızla yaradılıb. Alınmış silah-sursatla bu gün muxtar respublikanın ordusu da lazımınca təmin olunur. Hazırda muxtar respublikada yerləşən birləşmə və hissələrdə qəbul edilmiş planlara uyğun olaraq təlimlər və nəzəri işlər həyata keçirilir. Eyni zamanda, hazırda muxtar respublikanın əsgəri məişət komplekslərinin yaxşılaşdırılması sahəsində işlər gedir, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə tam hazırdır.

**Prezident İlham ƏLİYEV:** O dağ postlarına təchizatın təşkili ilə bağlı işlər görülüb?

**Vasif TALIBOV:** Demək olar ki, hamısına yollar çəkilibdir. Bəzi postlarımız var ki, onların təminatı avqust-sentyabr aylarında həyata keçirilir. Bütün hamısı ilə əlaqəmiz var, gələn ilin iyun ayına qədər təminat artıqlaması ilə həyata keçirilibdir və xidmətin aparılmasında heç bir problem yoxdur.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Digər vacib sahə energetikadır. Bu istiqamətdə də böyük işlər görülüb. Hazırda Naxçıvanda generasiya gücü 220 meqavata yaxındır və sevindirici hal ondan ibarətdir ki, bunun əksəriyyəti bərpaolunan enerji növləridir. Su və Günəş elektrik stansiyalarının tikintisi geniş vüsət almışdır. Hazırda uzun illər üzərində işlədiyimiz və İran İslam Respublikası ilə imzalanmış anlaşma nəticəsində reallaşan önəmli layihə icra edilir - 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası tikilir. Soruşmaq istəyirəm, bu istiqamətdə hansı işlər görülüb və stansiyanın tikintisi ilə bağlı əlavə hansı addımlar atılmalıdır?

**Vasif TALIBOV:** Sizin qayğınız və iştirakınızla 2005-ci il dekabrın 20-də muxtar respublikada İran İslam Respublikasından alınmış qazın açılışı həyata keçirildi, bu gün 90 minə yaxın abonent qazla təmin olunubdur. Elektrik enerjisi sahəsində də böyük işlər görülüb. Əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Siz qeyd etdiyiniz kimi, bunun da 6-sı bərpaolunan enerji sistemləridir. Əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovatsaata yaxın enerji idxal etmişdisə, 2018-ci ildə 35 milyon kilovatsaata yaxın ixrac edibdir. Buna görə bu sahədə də Sizin qayğınızla işlər davam etdirilir, problem yoxdur. Ordubad Su Elektrik Stansiyası ilə bağlı Araz çayının bizim əraziyə tərəf hissəsində bənd tikilibdir, qapılar qoyulubdur, kanalda işlər davam etdirilir. İran İslam Respublikası ilə danışıqlar aparılır ki, o tərəfdən də bəndin tikintisi ilə bağlı işlərə başlanılsın. Vəsait ayırıbsınız, heç bir problem yoxdur, işlər davam etdirilir.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Bu, doğrudan da tarixi nailiyyətdir. Çünki Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda enerji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu, əslində, təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə mümkün deyildi, bu gün reallıqdır. Şadam ki, bərpaolunan enerjinin ümumi enerji balansındakı payı getdikcə artır və Ordubad Su Elektrik Stansiyasının istifadəyə verilməsi nəticəsində prinsip etibarilə Naxçıvan Muxtar Respublikası öz enerji təminatını 100 faiz bərpaolunan enerji hesabına qarşılayacaqdır.

Bir də ki, yolların tikintisinə də böyük vəsait ayrılmışdır və yollar keyfiyyətli tikilir. Mən özüm şəxsən bunun şahidi olmuşam. Naxçıvan-Şərur-Sədərək avtomobil yolu bir neçə ildir ki, istifadəyə verilib. Naxçıvan-Şahbuz yolu layihəsi tam icra edilib. Naxçıvan-Culfa yolu da icra edilib, hazırda Culfa-Ordubad yolunun tikintisi davam etdirilir. Bu istiqamətdə hansı işlər görülüb və bu yolun nə vaxt istifadəyə verilməsi nəzərdə tutulur?

**Vasif TALIBOV:** Çox sağ olun. Ayırdığınız vəsaitlə orada işlər başlanıbdır, yolun uzunluğu 50 kilometrdir. O vaxt layihəni təsdiq edən zaman verdiyiniz tapşırığa əsasən onun 11 kilometri 2 gedişli-2 gəlişli, qalan 40 kilometrə yaxını isə 1 gedişli-1 gəlişlidir. Artıq orada torpaq və bir qat asfaltın qoyulması işləri başa çatıbdır. Bu ilin sonuna kimi orada ikinci asfalt qatının qoyulması başa çatacaq. İcazənizlə, biz üçüncü qatı qışda deyil, may-iyun aylarında qoyaq.

**Prezident İlham ƏLİYEV:** Gələn ilə?

**Vasif TALIBOV:** Bəli, yol böyüsün, otursun, may-iyun aylarında tamamilə tamamlanacaqdır.

**Prezident İlham ƏLİYEV:** Beləliklə, şəhərlərarası bütün yollar artıq ən yüksək standartlara cavab verəcək.

**Vasif TALIBOV:** Bəli, birinci dərəcəli yollar demək olar ki, tam standartlara cavab verən səviyyədə qurulur.

**Prezident İlham ƏLİYEV:** Kənd yolları da tikilir, bu istiqamətə də vəsait ayrılmışdır və gələn ilin investisiya proqramında bu, nəzərə alınmalıdır.

**Vasif TALIBOV:** Sağ olun. Ümumiyyətlə, 2003-2019-cu illər ərzində kənd yolları da daxil olmaqla, 2 min kilometrə yaxın ümumi yollar investisiya və büdcə vəsaiti hesabına qurulmuşdur.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Şərur Sənaye Məhəlləsinin yaradılması üçün bu il 5 milyon manat vəsait ayrılıb və bu sahədə hansı işlər görülür? Eyni zamanda, Naxçıvanda yeni xalça fabrikinin tikintisi də nəzərdə tutulur. Bu sahədə hansı işlər görülüb? Məruzə edin.

**Vasif TALIBOV:** Çox sağ olun. Ayırdığınız vəsait hesabına Şərur Sənaye Məhəlləsində artıq layihə-planlama işlərinə başlanılıbdır, qısa müddət ərzində investorların cəlbi ilə bağlı təkliflər vermişik. Təklifləri gözləyirik ki, orada hansı sənaye müəssisələri qurulsun. Demək olar ki, bu ilin sonuna artıq orada ilk müəssisənin qurulması işlərinə başlanılacaqdır. İlk olaraq bitki yağları istehsalı müəssisəsinin qurulması nəzərdə tutulubdur. Ona görə ki, muxtar respublikamızda bu, yüz faiz idxal hesabına həyata keçirilir.

Xalça fabrikinin qurulması işləri başa çatdırılıbdır. İndi yun tədarükü sexinin qurulması işləri davam etdirilir. Artıq orada işçilər götürülübdür, yəni sınaq işləri başlanılıbdır, xalçalar toxunur. Bir-iki ay müddətində orada işlər tamamilə başa çatdırılacaq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün indi pivot suvarma qurğularının alınması məqsədilə vəsait ayrılmışdır. Eyni zamanda, bu ilin investisiya proqramında Süni Mayalanma Mərkəzinin tikintisi nəzərdə tutulur. Bunun ümumi dəyəri təqribən 7 milyon manatdır, onun böyük hissəsi bu il verilməli idi, vəsait verildi və bu sahədə hansı işlər görülüb?

**Vasif TALIBOV:** Muxtar respublikada bu sahəyə də diqqətiniz sayəsində, cənab Prezident, deyə bilərəm ki, bu illər ərzində 4 min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulmuş, 160-dan yuxarı artezian quyusu qazılmışdır və kəhrizlər bərpa olunmuşdur. Bunun hesabına 2003-cü ildə muxtar respublikanın əkinə yararlı torpaqları əgər 39 min hektarı əhatə edirdisə, Heydər Əliyev su anbarını istifadəyə verdiyinizdən, yeraltı suvarma şəbəkələri qurulandan sonra bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir. Deyə bilərik ki, Sizin rəhbərliyinizlə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi məsələləri tam təmin olunubdur.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Eyni zamanda, əminəm ki, artıq ixrac potensialı da formalaşa bilər. Bildiyiniz kimi, Türkiyə tərəfi böyük addım ataraq Naxçıvanın istehsalı olan malların idxalı ilə bağlı da göstəriş vermişdir. Hesab edirəm ki, Naxçıvanın istehsal potensialı artdıqca ixrac imkanları da genişlənəcək.

Bir məsələyə də toxunmaq istəyirəm. Keçən il Naxçıvan büdcəsinin gəlirləri təqribən 400 milyon manata yaxın idi. İndi növbəti il üçün büdcə məsələləri müzakirə olunur. Əlbəttə ki, Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik. Ancaq bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Naxçıvan büdcəsinin cəmi 22 faizi yerli gəlirlər hesabına formalaşır, yəni 383 milyon manatdan cəmi 83 milyon manatı yerli gəlirlər hesabına formalaşır, qalan 300 milyon manat Bakıdan dotasiya verilir. Hesab edirəm ki, növbəti illərdə yerli gəlirlərin artırılması istiqamətində işlər aparılmalıdır ki, onların faiz nisbəti artsın. Əminəm, belə olan halda daha da böyük imkanlar olacaq ki, sosial və sənaye layihələri icra edilsin.

Bütün ölkədə olduğu kimi, bu gün Naxçıvanda da maliyyə və iqtisadi sahələrdə şəffaflıq tam təmin edilməlidir. Bildirməliyəm ki, aparılan islahatlar nəticəsində təkcə bu ilin 10 ayı ərzində büdcə gəlirləri plandan əlavə 850 milyon manat artmışdır. Bunun yarısı gömrük, yarısı vergi orqanları hesabına formalaşıb. Bu vəsait sırf idarəetmədə aparılan islahatlarla, şəffaflıqla bağlıdır və bizə imkan verir ki, maaşları da, pensiyaları da artıraq, investisiya layihələrinə də vəsaiti artıraq. Ona görə gələn ilin büdcəsinə baxdıqda yerli gəlirlərin həm mütləq rəqəmlərinin artırılması, eyni zamanda, ümumi büdcədə yerli gəlirlərin faizinin artırılması üçün əlavə addımlar atılmalıdır.

**Vasif TALIBOV:** Gələn ilin büdcəsi ilə əlaqədar deyə bilərik ki, maaş artımı ilə əlaqədar büdcənin həcmi də artmışdır. Gəlirlər hissəsi isə 12 milyon manata yaxın artırılmışdır, yəni 2020-ci ilin büdcəsində yerli gəlirlər 100 milyon manata yaxındır. Pensiya və təqaüdlərin ödənilməsi üçün yerli büdcədə təqribən 100 milyon manata yaxın yığım nəzərdə tutulub.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır.

# Azərbaycanla Qətər beynəlxalq arenada fəal əməkdaşlıq edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzabın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab fəxri qarovul dəstəsinin qarşısından keçdi.

**Feysal bin Abdullah Həməd Abdullah Al HİNZAB** etimadnaməsini Prezident İlham Əliyevə təqdim edərək dedi:

- Cənab Prezident, böyük şərəf hissi ilə qardaş və dost Azərbaycan Respublikasına səfir təyin olunmağımla bağlı etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim edirəm. Sizin baxışınıza ən uyğun şəkildə ikitərəfli münasibətlərimizin inkişafı üçün əlimdən gələni edəcəyəm. Çox sağ olun.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm. Əminəm ki, sizin Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafı davam edəcəkdir. Bizim çox yaxşı siyasi əlaqələrimiz var. Hər iki tərəf bu münasibətləri qardaş ölkələr arasında münasibətlər kimi dəyərləndirir. Bu, həqiqətdir. Əminəm ki, siyasi, iqtisadi və müxtəlif sahələrdə biz çoxlu tərəqqi müşahidə edəcəyik. Ölkələrimiz beynəlxalq arenada fəal əməkdaşlıq edir. Dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlər olmuşdur. Bizim hökumətlərarası fəaliyyətimiz var. Nazirlər səviyyəsində qarşılıqlı səfərlər var. Ona görə əminəm ki, tərəfdaşlığımızın ənənəvi sahələrinə əsas diqqəti yetirmək və yeni sahələri aşkar etmək üçün gələcəkdə çoxlu imkanlar olacaq.

Hesab edirəm ki, ticarət dövriyyəsi ilə bağlı olan məsələyə xüsusi diqqət yetirməliyik. Hesab edirəm ki, ticarət dövriyyəsini hər iki istiqamətdə artırmaq üçün potensial var. Çünki indi bizim bir-birimizə təqdim edə biləcəyimiz daha çox şey var. Şadam ki, ölkənizdən gələn turistlərin sayı artmaqdadır və bu da bizim əməkdaşlığımızın yaxşı əlamətidir. Bildiyiniz kimi, sizin vətəndaşlar üçün heç bir viza tələbi yoxdur və əminəm ki, hər iki istiqamətdə biz turistlərin sayının artdığını görəcəyik.

Həmçinin potensial əməkdaşlıq sahələrindən biri də investisiyalardır. Bilirəm ki, sizin ölkəniz xaricə sərmayə yatırır, Azərbaycan da xaricə sərmayə yatırır, biz birgə investisiya layihələri üçün sahələri tapa bilərik. Odur ki, diqqətimizi cəmləşdirmək üçün çoxlu sahələr olacaq. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı siz çox məşğul olacaqsınız və əlaqələrimizin gücləndirilməsi üçün bütün vaxtınızı sərf edəcəksiniz.

* * *

Səfir **Feysal bin Abdullah Həməd Abdullah Al HİNZAB** dedi:

- Təşəkkür edirəm Zatialiləri. Cənab Prezident, burada olmaqdan, Sizinlə görüşməkdən, Sizə etimadnaməmi təqdim etməkdən şərəf hissi duyuram. Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd Al Taninin Sizə salamlarını, xalqınıza daha böyük nailiyyətlər, rifah və tərəqqi arzularını çatdırıram. Buraya gəldikdən sonra biz hərtərəfli inkişafın şahidi olmuşuq və mən bunu görüşdüyüm hər kəsə söyləyirəm. Biz ilk baxışdan ölkənizə aşiq olmuşuq. Qoşulmama Hərəkatının Sammitində iştirak etmək, dini liderlərin Sammitini isə izləmək fürsəti mənə nəsib olmuşdur. Zatialiləri, bu iki sammitin uğurlu keçirilməsi münasibətilə Sizi, hökumətinizi və xalqınızı təbrik edirik. Bu, bizdə belə bir təəssürat yaradır ki, Azərbaycan dünya xəritəsində öz çəkisinə malik olan ölkələrdəndir, düzgün istiqamətdədir və müxtəlif tədbirlərin keçirilməsi üçün ev sahibi kimi çıxış edir. Bu da Azərbaycan üçün siyasi vasitədir. Əlbəttə ki, bizim çox mükəmməl münasibətlərimiz var. Mənə şəxsən bu münasibətlərin bütün istiqamətlərdə inkişafı üçün gərgin çalışmaq təlimatı verilmişdir.

* * *

Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Əlahəzrət şeyx Təmim bin Həməd Al Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

# Azərbaycan-İordaniya dostluq, qardaşlıq əlaqələri çox yüksək səviyyədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Ğoşehin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Sami Abdullah Ğoşeh fəxri qarovul dəstəsinin qarşısından keçdi.

**Sami Abdullah ĞOŞEH** etimadnaməsini Prezident İlham Əliyevə təqdim edərək dedi:

- Cənab Prezident, İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri kimi etimadnaməmi və sələfimin geri çağırılma məktubunu təqdim etmək mənim üçün şərəfdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, cənab səfir, sizi Azərbaycanda salamlayıram, sizə uğurlar arzulayıram. Əminəm ki, fəaliyyətiniz dövründə biz İordaniya-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafını görəcəyik.



Bildiyiniz kimi, əlaqələrimiz çox yüksək səviyyədədir və biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik. Mənim qardaşım Kral həzrətləri ilə çox möhkəm dostluq-qardaşlıq münasibətlərimiz vardır. Bildiyiniz kimi, dövlət başçılarının bir çox qarşılıqlı səfərləri təşkil edilmişdir. Beynəlxalq təşkilatların tədbirləri zamanı biz həmişə bir-birimizlə görüşürük. Eyni zamanda, beynəlxalq tədbirlər zamanı da həmişə görüşürük. Ötən ay Rusiyada "Valday" Diskussiya Klubunun iclasında birlikdə iştirak etmişik. Doğrudan da Kral həzrətləri ilə bizim çox yaxın əlaqələrimiz var və bu əlaqələr ikitərəfli münasibətlərimizin inkişafı üçün də mühüm rol oynayır. Beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birimizi dəstəkləyirik və bu qarşılıqlı dəstək və həmrəylik davam etdiriləcək.

Hesab edirəm ki, biz növbəti mərhələdə daha çox iqtisadi əməkdaşlığa fikir verməliyik. Hələ ki, qarşılıqlı ticarət dövriyyəmiz bizim istəklərimizi əks etdirmir. Ona görə ticarət dövriyyəsinin artırılması istiqamətində əlavə addımların atılması lazımdır. Hesab edirəm ki, hökumətlərarası komissiya da bu istiqamətdə önəmli addımlar atacaq. Qarşılıqlı sərmayə qoyuluşu məsələlərinə də çox diqqətlə baxmaq lazımdır. Son zamanlar turizm sahəsində yaxşı irəliləyiş var və əminəm ki, bu müsbət dinamika davam etdiriləcək. Ölkənizin çox məşhur, dünya səviyyəli tarixi abidələri, əlbəttə ki, bir çox ölkələrdən turistləri ölkənizə cəlb edir. Son illərdə Azərbaycana da xaricdən gələn turistlərin sayı kəskin artmışdır. Bu ilin on ayında 11 faiz artım var. Ancaq oktyabr ayında keçən ilin oktyabrı ilə müqayisədə 25 faiz artım olub.

Biz sözlə, əlaqələrimizin hərtərəfli inkişafı üçün çox gözəl şərait vardır. Əminəm ki, siz öz fəaliyyətinizlə bu işlərə yeni təkan verəcəksiniz. Bir daha xoş gəlmisiniz.

* * *

Səfir **Sami Abdullah ĞOŞEH** dedi:

- Cənab Prezident, gərgin iş qrafikinizə baxmayaraq, bizə vaxt ayırıb qəbul etdiyinizə, etimadnaməni təqdim etmək üçün şərait yaratdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. İcazə verin, İordaniya Haşimilər Kralı II Abdullahın salamlarını Sizə çatdırım. Azərbaycan Respublikasına və Azərbaycan xalqına davamlı inkişaf, rifah və şəxsən Sizə cansağlığı, uzun ömür arzulayıram.

Əlahəzrət Kralın təlimatına uyğun olaraq mən işlədiyim müddət ərzində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı istiqamətində səylərimi əsirgəməyəcəyəm. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindəki həmkarlarımla birlikdə və digər qurumların köməyi ilə bu əlaqələrin daha da inkişaf etməsinə nail olacağıq. İki ölkə arasında iqtisadiyyat, investisiya və turizm sahələrində əlaqələrin inkişafı üçün azərbaycanlı həmkarlarımızla birgə iş görəcəyik. Cənab Prezident, Əlahəzrət Kral gələn ay Sizinlə görüşmək arzusundadır.

Cənab Prezident, icazə verin, mən Azərbaycanda gördüyüm bu möhtəşəm inkişaf, bütün sahələri əhatə edən tərəqqiyə valeh olduğum barədə hisslərimi Sizə bildirim. Qeyd etmək istəyirəm ki, cənab Prezident, mən, əlbəttə, Azərbaycanın necə gözəl, füsunkar ölkə olduğunu şəkillərdən, fotolardan bilirdim, amma buraya gəldiyim ilk gündən bunun bilavasitə şahidi oldum. Əlbəttə, əldə olunmuş bu misilsiz, əvəzolunmaz tərəqqinin adamda yaratdığı ilk təəssürat odur ki, həqiqətən Azərbaycan inkişaf etmiş dövlətlərin sırasındadır.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, xahiş edirəm mənim də səmimi salamlarımı Kral həzrətlərinə çatdırasınız.

Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Əminəm ki, fəaliyyətiniz dövründə siz Azərbaycanın müxtəlif regionlarına səfər edəcəksiniz, ölkəmizlə, xalqımızla yaxından tanış olacaqsınız. Eyni zamanda, onu görəcəksiniz ki, İordaniyaya, onun xalqına Azərbaycan cəmiyyətində çox böyük rəğbət var.

# Bakıda *“Üfüqdə yeni fürsətlər:* Qadın sahibkarlara yaşıl işıq” mövzusunda II forum keçirilib

Noyabrın 18-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası ilə birgə Qlobal Sahibkarlıq Həftəsinin qeyd olunmasına həsr edilmiş “Üfüqdə yeni fürsətlər: Qadın sahibkarlara yaşıl işıq” mövzusunda II forum keçirib.



AZƏRTAC xəbər verir ki, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası idarə heyətinin rəhbəri Səkinə Babayeva ölkəmizdə qadın sahibkarların biznes imkanlarının artırılması istiqamətində həyata keçirdikləri layihələr barədə danışıb. Azərbaycan hökuməti tərəfindən qadın sahibkarlara dəstək verildiyini vurğulayan Səkinə Babayeva qeyd edib ki, bu da nəticədə məşğulluğun artmasına kömək edir.

Baş Nazirin müavini Əli Əhmədov forumda çıxış edərək deyib ki, Azərbaycan iqtisadiyyatının imkan verdiyi çərçivədə Prezident və hökumət tərəfindən insanların rifahının yaxşılaşdırılması istiqamətində addımlar atılacaq. İnsanların rifahının yaxşılaşdırılmasında əsas istiqamətlərdən biri də məşğulluğun inkişafıdır. Burada da əsas məsələ ölkədə qadın sahibkarlığının inkişafıdır. Azərbaycanda qadın sahibkarlığının inkişafına xüsusi dəstək verilir. Bu, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin qadın sahibkarlığının inkişafı istiqamətində gördüyü işlərin nəticəsidir.

Baş Nazirin müavini vurğulayıb ki, Azərbaycanda qadın sahibkarlığının daha da inkişaf etdiyi və iqtisadiyyat sahəsində qadınların fəal iştirakı göz qabağındadır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, ölkəmizdə həyata keçirilən islahatların mərkəzində insan amili durur. 2019-cu ildə Azərbaycanda iki mərhələdə böyük islahatlar həyata keçirildi. Minimum əməkhaqları, pensiyalar ciddi şəkildə artırıldı. Təkcə əməkhaqları 20 faizdən 50 faizə qədər yüksəldildi.

Diqqətə çatdırılıb ki, Azərbaycanda iqtisadiyyatın bir çox sahələrində, eləcə də səhiyyədə qadınlarımızın iştirak səviyyəsi kişilərdən daha yüksəkdir. Qadının ictimai fəallığının artırılması Azərbaycan cəmiyyətinin demokratik potensialının gücləndirilməsinin vacib hissələrindən biridir. İkinci tərəfdən, ailələrin təminatının yaxşılaşdırılmasında qadın sahibkarlığının inkişafının rolu böyükdür. Bununla yanaşı, qadınlar Azərbaycan iqtisadiyyatına, bütövlükdə ölkənin inkişafına töhfə verirlər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Azərbaycanda qadın sahibkarların sayı ilbəil artır. Qadın sahibkarların sayının artması əhalinin həyat səviyyəsinin yüksəlməsi, yeni iş yerlərinin açılmasına səbəb olur.

Komitə sədri vurğulayıb ki, qadınların peşə-ixtisas kurslarına cəlb edilməsi daha da güclənməlidir. Sahibkar qadınlar üçün yeni bazarlara çıxış imkanları yaradılmalıdır. Qadın sahibkarlığın inkişafı yoxsulluğun azalmasına yardım edir. Qadın sahibkarların istehsal etdikləri məhsulların ixracı daha da artırılmalıdır.

Hicran Hüseynova əlavə edib ki, Azərbaycanın 8 rayonunda Qadın-Resurs mərkəzlərinin yaradılması nəticəsində 145 qadın şəxsi biznesini qurub. Bütövlükdə bu mərkəzlər vasitəsilə 6500-dən çox üzvü olan güclü qadın şəbəkəsi mövcuddur.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib ki, Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan qadınların sayı 200 minə yaxındır. Onlardan təxminən 33 faizi Bakıda, 17 faizi Aran, 16 faizi Gəncə-Qazax, 10 faizə yaxını Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda fəaliyyət göstərir. Sahibkarlığın maliyyə resurslarına çıxışını təmin etmək məqsədilə yaradılan güzəştli mexanizmlərdən qadın sahibkarlar da yararlanırlar. Təkcə Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərindən indiyədək təxminən 4300-dək sahibkarlıqla məşğul olan qadın faydalanıb və 115 milyon manatdan çox kredit əldə edib.

Daha sonra Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakasetti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov çıxış edərək bildiriblər ki, Azərbaycanda qadınlar digər sahələrdə olduğu kimi, sahibkarlığın inkişafında da mühüm rol oynayır və biznes fəaliyyəti ilə fəal şəkildə məşğul olurlar. Qadınların iqtisadi təşəbbüskarlığının artması, mikro, kiçik və orta biznesdə geniş təmsil olunması ölkənin sosial-iqtisadi inkişafı, məşğulluğun təmin olunması baxımından əhəmiyyətlidir. Ölkə üzrə fərdi sahibkarların təqribən 20 faizini qadınlar təşkil edir.

Forumda “Uğurlu qadınların hekayəsi,” “İncəsənətdə sahibkarlığın inkişafı”, “Azərbaycanda turizm biznesi/evdə məşğulluğun inkişafı”, “Biznes fəaliyyəti olan qadınlar: üstünlüklər, çətinliklər və imkanlar”, “Azərbaycanda sahibkarlığın təşviqində biznes təhsilin rolu” və “Bankların qadınlara göstərdiyi dəstək mexanizmləri” mövzularında panel müzakirələr aparılıb.

# Əli Kərimli və radikal ətrafı bəraət axtarışında

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov “Facebook” səhifəsində “Əli Kərimli və radikal ətrafı bəraət axtarışında” adlı status paylaşıb. AZƏRTAC statusu təqdim edir.



“Bu günlər dövlətin yeni iqtisadi-siyasi islahatlar aparması, fərqli sosial zümrələrə açılma, Prezidentin ictimai nəzarət üçün cəmiyyətdən dəstək istəməsi Azərbaycanımızın taleyinə biganə qalmayan bütün sivil qüvvələr tərəfindən təqdirlə qarşılanır, ölkədə yeni, daha sağlam siyasi mühit yaranır. Amma bununla paralel olaraq, əsasən Əli Kərimli və radikal antimilli ətrafının get-gedə daha da ifrat, barışmaz mövqeyə yuvarlanmasının şahidiyik.

Belə ifrat inkarçı mövqenin səbəbləri nədir?

Birincisi, Azərbaycan iqtidarının sosial təşəbbüslərinin uğuru radikal müxalifətin məhdud sosial bazasını daha çox tükəndirir. Bu, özünü 19 oktyabr aksiyasındakı biabırçı fiasko və noyabrın 2-nə təyin etdikləri aksiyanı təxirəsalma məcburiyyətləri ilə təsdiqlənir.

İkincisi, bəlli olur ki, Əli Kərimli və radikal antimilli ətrafı sosial şəbəkələrdə izləyicilərinin yarıdan çoxunu itiriblər. Onların “Facebook” səhifəsində bəyənmələrin, paylaşımların statistikasında azalma templəri güclənib. Xatırladaq ki, “Facebook” sosial şəbəkəsi administrasiyası bəyan edib ki, bu il 5,4 milyard saxta hesabı bağlayıb. Bu, sosial mediada manipulyasiya və dezinformasiyaya qarşı savaşın davam etdiyini göstərir. “Saxta, manipulyasiya məqsədilə yaradılan hesabları aşkarlayaraq bloklamaq qabiliyyətimizi gücləndirmişik”, - deyə internet şirkəti hesabatında bildirir. Diqqətli oxucu bu iki hadisə arasında paralel apararaq asanlıqla Əli Kərimli, Cəmil Həsənli və radikal antimilli ətraflarının izləyici və bəyənmə itkilərinin “Facebook” şəbəkəsinin öz araşdırmasının, dezinformasiyaya qarşı effektiv mübarizəsinin nəticəsi olduğunu anlaya bilir.

Üçüncüsü, uzun illər özünü milli qüvvə kimi təqdim edənlərin Bako Saakyan, Masis Mailyan kimi işğalçı xunta rəhbərləri ilə eyni lojaları, Azərbaycana və Türkiyəyə münasibətdə həm də eyni ədavəti bölüşməsi bu yaxınlarda ABŞ-da keçirilən dinləmələrdə bir daha faş oldu.

Dördüncüsü, Almaniyada aparılan hüquqi araşdırmalar radikal müxalifətin trafikinq-insan alveri biznesində iştirakına dair hər gün yeni faktlar aşkara çıxarır. Almaniyadakı araşdırmaların ardınca Fransa və digər Avropa ölkələrində də araşdırmalar aparıldığı barədə informasiyalar verilməkdədir. İlkin açıqlanmış araşdırmalar Müsavatı silkələdiyi kimi, araşdırmaların davamı Əli Kərimli və radikal antimilli ətrafını bəri başdan təhdid etməkdədir. Axı Müsavatın AKM uzantısının bu biznesdə əsas rəqibi “Milli şura”nın Avropadakı müxtəlif strukturlarıdır.

Beşincisi, bu qruplaşma son zamanlar yalnız ailə-məişət qalmaqalları, qadınlara qarşı zorakılıq aktları ilə gündəmə gəlir, cəmiyyətə hər hansı yenilik, siyasi və ya şəxsi əxlaq nümunəsi təqdim etməyə qabil olmadığını sübut edib və s.

Beləliklə, iqtidarın uğurlu daxili siyasəti radikalları dəstəkləyə biləcək məhdud elektoratın daha çox əriməsinə səbəb olur. “Facebook”, “YouTube” kimi sosial şəbəkə administrasiyalarının tətbiq etdiyi yeniliklər Əli Kərimli, Cəmil Həsənli və “Milli şura”dakı digər radikalların ictimai rəy lideri olmaları haqqında uydurulmuş saxta rəqəmlərin birdən-birə iki-üç dəfə azalması ilə nəticələnir. Bu həm də o deməkdir ki, Əli Kərimli və radikal antimilli ətrafının sosial şəbəkə üzərindən inqilab etmək arzusu da puç olub. İqtidarın milli maraqlara söykənən uğurlu diplomatik həmlələrinin antimilli ünsürlər tərəfindən sabotaj edilmə cəhdləri cəmiyyətdə daha çox marginallaşmalarına səbəb olur. Nəhayət, Avropada başlamış hüquqi araşdırmalar radikal müxalifətə Qərbdə guya böyük dəstək verilməsi barədə uydurmaların da yalan olduğunu, bu müxalifətin Qərbin ciddi institutları tərəfindən məhz insan alveri ilə məşğul mafioz qurumlar kimi qəbul edildiyini aşkarlayır. Bəlli oldu ki, Azərbaycan iqtidarının illərlə dedikləri həqiqətdir: xaricdə, Qərbdə bu qüvvələrə yalnız anti-Azərbaycan dairələr, erməni lobbisi dəstək verir.

Belə hərtərəfli ifşa, dibə vurmadan sonra Əli Kərimli və radikal antimilli ətrafı nəticə çıxarıb indiyədək dəfələrlə media və IT ekspertlərinin açıqladığı faktları qəbul edib daha sağlam fəaliyyət metodları seçməli, saxta profillərdən istifadəyə, botlarla izləyici sayı artırmaq, özünə barmaqdan elektorat sorub çıxarma cəhdlərinə son qoymalı idilər. Antimilli qüvvələrin əlində alətə çevrildiklərini, müxalifətin yenilənməsi, cəmiyyətdə vətəndaş sülhünün dərinləşməsi önündə əngəl olduqlarını, minlərlə soydaşımızı “liberal cənnət” vədi ilə aldadıb son qəpiklərini də mənimsədiklərini, indi həmin soydaşlarımızın Avropada qaçqın kamplarında çox pis vəziyyətdə yaşadıqlarına görə məsuliyyət daşıdıqlarını etiraf etməli idilər. Bunun əvəzində nə görürük?

Müşahidə etdiyimiz odur ki, Əli Kərimli çevrəsindəki yaxın “silahdaşlarına” maksimum müdafiə olunmaq, heç bir səhvi etiraf etməmək, vətəndaşları aldatmanın kiçik miqyasda olduğunu deməklə ittihamları sovuşdurmaq, ənənəvi qaydada dövlətə, dövlət rəhbərliyinə qarşı kin-küdurət qusmaq tapşırığı verib. Bu işdə “Əli Kərimli TV” kimi rebrendinqə getməyi nədənsə xeyli ləngidən Sevinc Osmanqızı, Nəcəf Nəcəfovun “Azadlıq” brendini gözdən salıb Nikol Paşinyanın “Haykakan jamanak (“Erməni saatı”) qəzetinin adından ucuz plagiat yolu ilə anti-Azərbaycan “Azərbaycan saatı” yaratmış Qənimət Zahidov və əli gah ifşa olunmuş korrupsionerlərin cibindən, gah hotel odalarından, gah da ayətullahların risalələrindən çıxan Natiq Adilov xüsusi canfəşanlıq edirlər.

İnsanın savadsızlığına da, mədəniyyətsizliyinə də, cahilliyinə də göz yumub birtəhər onunla yanaşı yaşamaq olar, amma əxlaqsızlıqla bir arada yaşamaq çox çətindir. “Tutaq ki, müxalifət funksionerlərindən kimlərsə saxta viza alverində iştirak ediblər. Etiraf edim ki, mən bunu ciddi miqyaslı problem kimi qəbul etmirəm. Bu alverin həcmi nə qədərdir ki? Nə qədər məbləğdən söhbət gedir? Olsun 500 min, 1 milyon, 5 milyon”, - Sevinc Osmanqızı belə deyir. Bu nə məntiqdir, bu nə “siyasi şəffaflıq” nümunəsidir? 500 minlə 5 milyon arasında doğrudanmı fərq yoxdur sizin üçün? Axı bu pulların hər bir qəpiyi də aldatdığınız, milli dövlətlə, ana vətənlə problem yaratdığınız insanların sınan taleləri, dağılan ailələri deməkdir. Sizin “izzəti-nəfs” dediyiniz, “sanballı rəqabət” dediyiniz budurmu?

Əxlaqsızlığa “şəxsi həyatımdır” deyib haqq qazandırmaqdırmı sağlam cəmiyyət uğrunda, izzəti-nəfs uğrunda mübarizə? Siyasi islam liderlərinin sitatlarını tutuquşu kimi təkrarlamaqdırmı liberal Qərb dəyərləri uğrunda mübarizə? Ən korrupsiyaya bulaşmış ünvanlardan “gecə növbəsi” işi adı ilə aylıq almaq, susmaq- yazmamaq müqabilində ianə qoparmaq üçün saatlarla qapıları pusmaqdırmı cəmiyyəti sağlamlaşdırma? Cibindən asılı olduğun qaranlıq dairələrin sifarişi ilə siyasi opponent bildiyin komandanın ayrı-ayrı fərdlərinə qarşı qara PR aparmaqdırmı urvatlı-sanbalı mübarizə? Cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməkdirmi siyasi mübarizə? Satqınlığı tərəfdarlarına nümunə kimi təqdim etməkdirmi müxalifətçilik?

Əminəm ki, qarşıdan gələn bələdiyyə seçkiləri də klaviatura qəhrəmanlarının heç bir siyasi sanbalı, çəkisi olmadığının növbəti nümayişi olacaq”.

# İnamdan başlanan işıqlı gələcək

*Əvvəli 1-ci səh.*

## Gəncliyi ilə böyüyən Vətən

Azərbaycan rəhbərliyinin apardığı məqsədyönlü islahatların mərkəzində ölkəmizin gələcəyi olan gənclər durur. Prezident İlham Əliyev gənclərin potensialından faydalanır, onlara inanır, güvənir, yüksək etimad göstərir, tapşırılmış vəzifələri uğurla yerinə yetirən gənclərimizin nailiyyətlərinə sevinir, onları irəli çəkir. Yaşlıların zəngin təcrübəsi ilə gənclərin enerjisi, ənənələrlə müasirlik arasında vəhdət yaradaraq bunu ölkəmizin inkişaf formuluna çevirir. Bir çox ölkələrdən, elə bizim də müstəqilliyin ilk illərində yaşadığımız təlatümlü dövrlərdən fərqli olaraq Azərbaycan Prezidenti ölkə gəncliyinin hansısa siyasi oyunlarda alətə çevrilməsinə imkan vermir. Cəmiyyətdə layiq olduqları yüksək mövqelərdə qərarlaşmaları, gəncliyimizin həm fiziki, həm də mənəvi sağlamlığı üçün məqsədyönlü strategiya həyata keçirir.

Gəncliklə birgə müxtəlif mövzularda aparılan aksiyalar təkcə Azərbaycan insanına deyil, ümumən bəşəriyyətə ünvanlanmış bir çağırışdır. Son onilliklərdə ölkəmizin təşəbbüsü ilə həyata keçirilən qlobal layihələrin, “Bakı prosesi” çərçivəsində təşkil edilən beynəlxalq humanitar forumların, sivilizasiyalararası dialoqun əldə olunması naminə fəaliyyətin son hədəfi dünyadakı bütün insanların xoş həyat naminə birliyini təmin etməkdən ibarətdir. Bəşəriyyətin gələcəyini təhdid edən ziyanlı ideologiyaları, işğalçı təfəkkürü, başqa xalqlara, mədəniyyətlərə nifrət ruhunu, terrorizmi müasir insanların həyatından birdəfəlik kənarlaşdırmaqdır.

Çünki dövlət rəhbərləri də, cəmiyyət də, gənclik də uzun illərdir ki, bu xəstəliklərə “yoluxmuş”, terrorizmi dövlət siyasətinə çevirmiş qonşu Ermənistanın apardığı təcavüzkar siyasəti yaxşı görür, nasizmin, terrorun acılarını illərdir ki, yaşayan ölkə olaraq Azərbaycan bütün bunların dünyanın gələcəyi üçün necə böyük fəlakət, təhlükə doğurduğunu bilir.

## Erməni faşizminin ifşası

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycan həyatına yeni nəfəs gətirib, respublikamızı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Prezidentimiz mötəbər beynəlxalq təşkilatların kürsülərində qətiyyətli, məntiqli çıxışları ilə diqqəti cəlb edir. Milli mənafeləri bütün səviyyələrdə cəsarətlə qoruyur, müstəqil xarici səyasət yürüdür.

Azərbaycan Prezidentinin bu il oktyabrın 3-də “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı tarixi çıxışı bunun daha bir nümunəsi oldu. Ölkəmizin rəhbəri inamla bəyan etdi ki, Dağlıq Qarabağ tarixi, mədəni, siyasi, geosiyasi və digər mənalarda həmişə Azərbaycanın olub və ora indi də Azərbaycandır. Və həmin fikri Prezidentimiz tarixdən silinməyəcək bir əminliklə ifadə etdi: “Qarabağ Azərbaycandır və nida işarəsi”.

Bu il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Türkmənistanın Aşqabad şəhərində təşkil edilmiş məhdud tərkibli iclasında Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasətini təkrarən dünyaya bəyan etdi, bəşəriyyətin gələcəyi ilə bağlı haqlı narahatlıqlarını bildirdi.

Həmin tədbirdə Azərbaycan Prezidenti Böyük Vətən müharibəsi illərində Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana Ermənistanda heykəl qoyulması faktını iştirakçıların diqqətinə çatdırdı: “Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib”. Azərbaycan Prezidenti irəli sürdüyü fikri 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyinin müvafiq məruzəsindən gətirilmiş sitatla möhkəmləndirdi: “Həmin məruzədə deyilir: “Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”.

Prezident İlham Əliyev xatırlatdı ki, Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik “1941-1945-ci illərin Böyük Vətən müharibəsi” ensiklopediyasının “Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat” adlı VI cildində dərc edilmiş “Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti” adlı məqalədə də Ter-Arutyunyana yer verilib. Həmin məqalədə əks-kəşfiyyatçıların 114-cü Dromedar ober qrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanın aşkar edilərək həbsə alınmasından söhbət gedir. “Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur” deyən Azərbaycan Prezidenti bu fikri ilə MDB dövlət başçılarının diqqətinə çatdırıb ki, hər hansı ölkədə nasizmə dair abidənin qoyulması açıq-aşkar təbliğat vasitəsidir. Bu isə bütün dünya üçün təhlükə mənbəyidir.

Azərbaycan Prezidentinin arqumentlərlə əsaslandırılmış fikirləri Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasından səsləndirilən “Qarabağ Azərbaycandır!” bəyanatından sonra Ermənistana daha bir sarsıdıcı zərbə idi. Bugünkü gənclik, gələcək nəsillər üçün ziyanlı meyillərdən, kindən, nifrətdən, təhlükələrdən uzaq daha mükəmməl və ədalətli dünyanın qurulması bu cür qətiyyətli mövqelərdən, hər kəsin öz adı ilə çağırılmasından, sağlam düşüncə qabiliyyətinə malik bütün insanların mövcud problemlər barədə ətraflı götür-qoy etməyə dəvət olunmasından başlanır.

## Gəncliyin tarixi missiyası

Azərbaycan dövləti bu istiqamətdə tarixi missiya həyata keçirir. Elə ötən ay ölkəmizin Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyi etməsi də eyni missiyaya xidmət göstərirdi. Müstəqillik tariximizin ən miqyaslı beynəlxalq siyasi tədbirlərindən olan Zirvə görüşündə Avropa qitəsi Azərbaycanın timsalında BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatın iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarını yenidən qəbul etdi. 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi də ölkəmizə göstərilən hörmətin, inam və etimadın, dünyanın əksər ölkələrinin Azərbaycana dəstəyinin təzahürüdür. Bu mərasimdə bəşəriyyətə bir çox mühüm çağırışlar ünvanlandı. Beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərin artırılması, bu baxımdan BMT-nin fəaliyyətində islahatların aparılması, sərhədlərin güc yolu ilə dəyişdirilməsinin, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulmasının qarşısının alınması, daxili işlərə müdaxilənin yolverilməzliyi, inkişaf imkanlarından qarşılıqlı əməkdaşlıq şəraitində istifadə bu çağırışların əsas məzmununu təşkil edirdi. Zirvə görüşünün xüsusilə əhəmiyyətli məqamlarından biri də Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq Azərbaycanın Gənclər Sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış etməsi və görüş ərəfəsində Bakıda təşkil olunan sammitdə dünyanın 40 dövlətindən gənclərin iştirakı idi. Bu da Azərbaycanın gələcəyə aydın baxışından irəli gəlirdi. Çünki o gənclərin çoxu gələcəyin dünyasını quracaq, Yer üzünün siyasi-iqtisadi, mədəni mənzərəsini müəyyənləşdirəcək potensial liderlərdir. Daha mükəmməl və ədalətli dünyanın qurulması missiyası əsasən onların üzərinə düşür.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Gələn ilin dövlət büdcəsi ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək

Dünən Milli Məclisin 5 komitəsi - İqtisadi siyasət, sənaye və sahibkarlıq, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət, İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclasında “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə çıxış edərək bildirdi ki, layihə həm komitələrin birgə iclasında, həm də plenar iclasda müzakirə olunub.

Maliyyə nazirinin müavini Azər Bayramov isə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin birinci oxunuşu zamanı deputatlar tərəfindən çoxlu sayda dəyərli təkliflərin irəli sürüldüyünü söylədi. Bu təkliflərin bir qisminə plenar iclasda cavab verilib. Ancaq digər təkliflər müxtəlif aidiyyəti təşkilatlarla bağlı olduğu üçün Maliyyə Nazirliyi həmin qurumlarla məsləhətləşmələr aparıb.

Nazir müavini dedi ki, verilən təkliflərin əksəriyyəti cari büdcə məsələləri deyil, investisiya xərclərinə aid olub. Ona görə də bu xərclərlə bağlı müzakirə aparıldıqda təkliflər dəyərləndiriləcək.

Müzakirələr zamanı çıxış edən deputat Vahid Əhmədov bildirdi ki, Milli Məclisdə Dövlət Sosial Müdafiə Fondunun da büdcəsinin icrası müzakirə edilməlidir. Bunun üçün isə 2020-ci ilin dövlət büdcəsinin icrası müzakirə olunarkən qanunvericiliyə dəyişiklik edilməli və növbəti ildə fondun büdcəsinin müzakirəsi aparılmalıdır. Deputat Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün nədən gecikdiyinin səbəblərini də soruşdu.

“Milli Məclisin komitələrinin birgə iclaslarında dövlət büdcəsinin müzakirəsinin aparılması Prezident İlham Əliyevin islahatlar kursunun təbliğat prosesidir. Burada deputatlar islahatlar kursuna münasibət bildirirlər”. Bu fikri isə deputat Fazil Mustafa söylədi.

Deputat Rüfət Quliyev isə hesab edir ki, dövlət kiçik və orta sahibkarlığın inkişafına daha böyük diqqət ayırmalıdır. Bunun üçün bank faizləri aşağı salınmalıdır. Əgər faizlər aşağı düşməsə, sahibkarlar böyük həcmdə kredit götürə bilməyəcəklər.

Komitə sədri Ziyad Səmədzadə bildirdi ki, gec-tez Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olacaq. Ancaq bunun üçün tələsmək olmaz. Elə böyük ölkələr var ki, bu təşkilata üzv olduqdan sonra iqtisadiyyatı acınacaqlı duruma düşüb. Dövlətin borcu artıb.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə diqqətə çatdırdı ki, büdcənin hər il artması önceki ilin büdcəsinin uğurlu icrasının nəticəsidir. 2020-ci ilin büdcəsinin ən böyük büdcə olmasının səbəbi də budur: “Gələn ilin büdcəsinin göstəriciləri artıq bizlərə bəllidir. Sosialyönümlü xərclərin artması, qeyri-neft sektorunun inkişafına daha böyük maliyyə dəstəyinin verilməsi çox müsbət qərarlardır. Dövlət büdcəsinin gəlirləri onu deməyə əsas verir ki, gələn il də pensiya və müavinətlərin artırılması ehtimalı yüksəkdir. Büdcə ölkə vətəndaşlarının hər il olduğu kimi, 2020-ci ildə də təhlükəsiz şəraitdə yaşamasının təminatçısıdır” deyən deputat bəzi təkliflər də səsləndirdi.

Onun fikrincə, tək Bakıda deyil, rayonlarda da sosial mənzillərin tikintisi sürətləndirilməlidir. Ali məktəblərin yataqxanaları bərpa olunmalı və ya yeniləri tikilməlidir. Yeni yataqxanaların tikilməsi Azərbaycana əlavə valyuta gətirə bilər. Həmçinin tələbə kreditləri ilə bağlı məsələ həll olunmalıdır.

Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov da tələbə yataqxanaları məsələsinə toxundu. Bildirdi ki, bu layihələrə maliyyə yatırmağa hazır olan şirkətlər var. Bu şirkətlər tələbələr üçün daha münasib qiymətə binalar tikə biləcəklərini deyirlər. Yəni bunun üçün mexanizm mövcuddur, sadəcə olaraq dövlət qurumları bununla bağlı məsləhətləşmələr aparıb razılığa gəlməlidirlər.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov isə dedi ki, gələn ilin dövlət büdcəsinin layihəsi ilə bağlı ciddi müzakirələr aparılıb, təkliflər səsləndirilib. Görünən odur ki, dövlət mühüm sahələrə ayırdığı vəsaitləri ilbəil artırır. Kənd təsərrüfatındakı artım da bunu göstərir. Ancaq buna baxmayaraq büdcədən ayrılan xərclər qənaətlə xərclənməlidir.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov vurğuladı ki, palata tərəfindən sahibkarlığın inkişafı, ayrılan vəsaitlərin istifadəsi ilə bağlı hesablamalar aparılıb: “Bizim tərəfimizdən həm də “Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrası ilə bağlı” qanun layihəsinə ediləcək dəyişikliklərlə əlaqədar rəsmi sürətdə müraciət edilib. Başda Maliyyə Nazirliyi olmaqla digər aidiyyəti qurumlar da bu məsələyə münasibət bildiriblər. Hesablama Palatasının qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyəti olmadığı üçün bunu müzakirə etmək üçün hökumətə təqdim etmişik. Yəqin ki, bu barədə qərar veriləcək”.

Vüqar Gülməmmədovun sözlərinə görə, deputatların hər hansısa rayonda müəssisənin, ali məktəbin və ya digər bir sosial obyektin tikintisi ilə bağlı təklifləri dövlət investisiya proqramına salınmalıdır. Belə olarsa, həmin təkliflərin reallaşması mümkündür.

Çıxışlardan sonra Maliyyə nazirinin müavini Azər Bayramov və İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bəzi sualları cavablandırdılar.

İclasa yekun vuran İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirdi ki, büdcə layihəsi başlıca iqtisadi sənəd olaraq 2020-ci ildə həyatımızın müxtəlif istiqamətlərini əhatə etməklə dünya və ölkə iqtisadiyyatında gözlənilən meyillərin təhlilinə uyğun hazırlanıb. Hər il olduğu kimi, 2020-ci ilin dövlət büdcəsi əhalinin sosial rifahının yüksəlməsinə, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin güclənməsinə, iqtisadiyyata investisiya qoyuluşunun daha da artmasına, kənd təsərrüfatının stimullaşdırılmasına möhkəm maliyyə əsasları yaradır. Növbəti ilin dövlət büdcəsinin xərclərinin strukturunda diqqəti çəkən mühüm məqamlardan biri cari xərclərin həcminin artmasıdır: “Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsindədir. İllər keçdikcə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz büdcə parametrlərinin daha da yaxşılaşdırılması üçün tədbirlər görür. Gələn ilin dövlət büdcəsi daha şəffaf hazırlanıb və əsas maliyyə sənədi ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək.

Çıxışlardan sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

1949 *Sumqayıt - 70* 2019

# Sumqayıt bu gün Heydər Əliyevin

**Sumqayıt xeyli vaxtdır ki, bayram libasına bürünüb. Bütün şəhər ictimaiyyətinin böyük sevinc hissi ilə səbirsizliklə gözlədiyi əlamətdar tarix - Sumqayıtın 70 illik yubileyi artıq gəlib çatıb. Yubileylə əlaqədar silsilə tədbirlər isə çoxdan başlayıb. Prezident İlham Əliyevin "Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında" 14 fevral 2019-cu il tarixli sərəncamına əsasən, şəhərin bu əlamətdar tarixi ilə bağlı tədbirlər planı hazırlanıb həyata keçirilməkdədir.**





## Qəsəbədən sənaye mərkəzinə

70 illik yubileyi şəhər sakinləri qürur və fəxarətlə qarşılayırlar. Çünki tarixi enişlərdən, yoxuşlardan keçən Sumqayıt bu gün öz mövcudluğunun ən yüksək inkişaf və yüksəliş dövrünü yaşayır. İndi tək Azərbaycanın deyil, Cənubi Qafqazın ən gözəl şəhərləri sırasında yer tutan Sumqayıtda həyata keçirilən layihələr Avropanın nüfuzlu nominasiyalarına layiq görülür. Ən əsası isə Sumqayıt öz müasir standartları və trendləri ilə inkişaf edən Azərbaycanın rəmzi kimi çıxış edir.

Tək Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mühüm sənaye mərkəzi kimi də şöhrətini gündən-günə artıran Sumqayıtın müasir tarixi XX əsrin 30-cu illərinin sonundan başlayır. Sovet hökumətinin Abşeron yarımadasında növbəti sənaye mərkəzi yaratmaq barədə qərarından irəli gələrək 1939-40-cı illərdə burada sintetik kauçuk, boru yayma və kimya zavodlarının bünövrəsi qoyulur. Böyük Vətən müharibəsinin başlaması ilə bütün tikinti işləri yarımçıq qalır. 1941-ci ildə istilik elektrik stansiyası işə düşür. 1945-ci ildə Kimya zavodu ilk məhsulunu verir.

1949-cu ildə isə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Sumqayıta şəhər statusu verilir. Beləliklə, qəsəbə olaraq yaranan Sumqayıt getdikcə sənaye mərkəzinə çevrilməyə başlayır. 1952-ci il boruyayma zavodu ilk məhsulunu buraxır. Vaxtilə tikintisi dayanmış Sintetik Kauçuk zavodu işə salınır və ilk dəfə neftdən etil spirti əldə edilir. 1955-ci ildə isə, alüminium zavodu işə düşür. 60-cı illərdə polimer tikinti materialları kombinatı, superfosfat zavodu tikilərək istehsala başlayır. Bütün bunlara paralel olaraq elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir.

## Ulu Öndərin inkişaf yoluna çıxardığı şəhər

Sumqayıtın daha sürətli inkişafı isə Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonrakı dövrə təsadüf edir. 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərliyə gələndə respublikamız ittifaq miqyasında çox geridə qalmışdı. Lakin Heydər Əliyevin işgüzarlığı, təşəbbüsləri və tələbkarlığı ilə respublikada həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində tezliklə Azərbaycanın taleyində və tarixində müsbətə doğru dönüş başlandı. Təbii ki, Azərbaycan iqtisadiyyatında baş verən intibah Sumqayıtdan yan ötmədi. Qeyd etdiyimiz kimi, həmin dövrədə Sumqayıtda əsas etibarilə metallurgiya və kimya müəssisələri yaradılmışdı. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Sumqayıtda yüngül sənaye müəssisələri yaradıldı, sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi və şəhər öz iqtisadi potensialına görə SSRİ məkanında tanınmağa başlandı. 70-ci illərin əvvəllərində əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə Cənubi Qafqazda ilk dəfə olaraq Sumqayıt Məişət Kimyası Zavodu yaradıldı, superfosfat zavodunda yüksək texnologiya əsasında inşa edilərək dənəvər superfosfat gübrəsi istehsalatı işə salındı. 1970-73-cü illərdə "Üzvi sintez" zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başladı, 1974-cü ildə sintetik kauçuk zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücü xeyli artırıldı. Ümumiyyətlə, 1969-82-ci illərdə Ulu Öndərin rəhbərliyi altında Sumqayıtda bir çox müəssisələr istifadəyə verildi. Bunlardan Kompressorlar zavodunu, Üst trikotaj və Xovlu İplik fabriklərini, Süd və Yeyinti məhsulları kombinatlarını misal göstərmək olar.

1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə SSRİ məkanında seçildi. Onun istehsal etdiyi məhsullar ölkənin 700 şəhərinə ixrac olunurdu. Bütün bunlar Ulu Öndərin Sumqayıta olan münasibətini nümayiş etdirirdi. Azərbaycan imperiya tərkibində olmasına baxmayaraq bu cür inkişaf edirdi. Ən əsası respublika rəhbərinin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi.

Məhz 70-ci illərdə əsaslı tikintinin geniş miqyas alması nəticəsində Sumqayıt nəhəng tikinti meydançasına çevrilmişdi. Şəhərə gələn qonaqlar, xarici nümayəndələr burada aparılan nəhəng quruculuq prosesinin miqyası və vüsətinə heyran qalırdılar. Dünyanın demək olar ki, əksər ölkələrinə ixrac olunan şəhər sənayesi məhsullarının keyfiyyəti və əsaslı tikintisinin gedişi ilə daim maraqlanan, tez-tez məlumatlar alan ölkə rəhbəri Sumqayıtı daim öz nəzarəti altında saxlayır, onun ortaya çıxan bütün problemlərini operativ həll edirdi. Bu diqqət və qayğının nəticəsi idi ki, 70-ci illərdə Sumqayıtda hər il 80 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilirdi. Hazırda fəaliyyət göstərən istehsalat sahələrinin çoxu, 40-dan artıq ümumtəhsil məktəbi, uşaq tərbiyə müəssisələri, saysız-hesabsız mədəniyyət, məişət xidməti, ticarət obyektləri, səhiyyə ocaqları məhz Ümummilli Liderin o dövrdəki məqsədyönlü siyasətinin bəhrələridir. Bu gün Sumqayıtın ən gözəl ünvanlarından olan "Kimyaçılar" mədəniyyət sarayı da həmin dövrdə inşa olunub.

Beləliklə, Heydər Əliyevin xüsusi diqqəti və qayğısı ilə 70-80-ci illərdə Sumqayıt öz inkişafının yüksək mərhələsinə qədəm qoymuşdu. Rəhbərlikdə olduğu illərdə sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Sumqayıtın sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində onun əvəzsiz xidmətləri danılmaz bir faktdır. Rəhbərliyi dövründə 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin yaddaşında böyük tarixi hadisə olmuşdur.

## Sumqayıta və sumqayıtlılara böyük diqqətin təzahürü

Lakin sovet ittifaqı dağıldıqdan sonra iqtisadi əlaqələrin qırılması, xammal və satış bazarının olmaması, eləcə də zavod və fabriklərdəki avadanlıqların fiziki və mənəvi surətdə köhnəlməsi səbəbindən demək olar ki, əksər zavod və fabriklər öz fəaliyyətini dayandırmış və ya az gücIə işləməyə başlamışdı. Bu proses əhalinin sosial durumunun aşağı düşməsinə gətirib çıxarmışdı.

Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə digər sahələrdə olduğu kimi, Sumqayıt sənayesi də özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Xatırladaq ki, 1993-cü il dekabrın 18-də Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix muzeyində olmuş, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etmiş, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini vermişdi. Ulu Öndərin uğurlu və uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermiş, sakinlərdə qurub yaratmağa əbədi həvəs, gələcəyə böyük inam yaratmışdır. Bundan sonra Heydər Əliyev 5 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bu səfərlər Ulu Öndərin Sumqayıta və sumqayıtlılara böyük diqqətinin təzahürü idi.

Məhz Ümummilli Liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətlənmişdir. Heydər Əliyevin Sumqayıtın sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başlamışdır. Həmin vaxt Ulu Öndərin şəxsi dəstəyi ilə xarici investisiya cəlb edilməklə Sumqayıtda iri layihə həyata vəsiqə qazandı: kimya sənayesinin gələcək inkişafında əvəzsiz rol oynayacaq Buxar-generator qurğusu inşa edildi.

Ümummilli Liderin bu şəhərlə bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, Sumqayıt yenidən ənənəvi sənaye mərkəzinə çevrilsin, yerli kadr potensialına söykənərək burada müasir müəssisələr açılsın. Ən vacibi isə Sumqayıtda insanların rahat yaşamaları üçün müvafiq şərait yaradılsın, yeni iş yerləri açılsın. Beləliklə də, Sumqayıt yenidən iqtisadi və kadr potensialı ilə seçilən bir şəhərə çevrilsin.






## 16 ildə 23 səfər

Son 16 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar Sumqayıtla bağlı Ulu Öndərin qarşıya qoyduğu vəzifələrin sürətlə həyata keçirilməsini təmin edib. Ona görə əminliklə demək olar ki, bu gün Sumqayıt Heydər Əliyevin arzuladığı şəhərə çevrilib. Bütün bunlar həm də onu göstərir ki, Sumqayıtın tarixi ənənələr əsasında inkişaf edərək nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumən Avropanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən və dövrün tələbinə uyğun zənginləşdirən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi əsas hədəflərdəndir. Ona görə bu gün Sumqayıt Prezident İlham Əliyevin daim diqqət və qayğısını duyur və hiss edir. Bunu Prezident İlham Əliyevin son 16 ildə Sumqayıta 23 dəfə səfər etməsi də göstərir. Dövlət başçısının hər səfəri şəhərin yüksəlişində yeni mərhələnin əsasını qoyub, yeni inkişaf planlarının həyata keçirilməsinə təkan verib.

Bu barədə danışan Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov deyir: *"Özünəməxsus müasir şəhər nümunəsinə çevrilən Sumqayıtın növbəti memarı möhtərəm Prezident İlham Əliyevdir. Ulu Öndərin ideya və təşəbbüslərini məharətlə həyata keçirən cənab Prezidentin ardıcıl səyləri Sumqayıtı gözəl ünvanlardan birinə çevirib. Son 16 ildə ölkə rəhbəri 23 dəfə Sumqayıta səfər etmişdir. Prezident İlham Əliyevin hər gəlişi Sumqayıtın tarixinə böyük hərflərlə yazılmaqla bərabər, bu şəhərin tərəqqisini şərtləndirən əsas amilləri bir daha aydın şəkildə müəyyənləşdirmiş və qətiləşdirmişdir".*

Regionların sosial-iqtisadi inkişafına dair I və II Dövlət proqramlarının uğurla icrası, habelə III Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq ölkənin makroiqtisadi göstəricilərində şəhərin xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb. Xüsusən iqtisadi siyasətin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində şəhərdə yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixrac potensialı yüksəlib.






## Şöhrətini bərpa edən müasir sənaye mərkəzi

Sumqayıt müəyyən dövrdə itirdiyi sənaye şəhəri adını özünə qaytarır və bu işlərdə inamla irəliləyir. Ona görə, əminliklə deyə bilərik ki, Sumqayıt Azərbaycanın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir.

Son illərdə gücü 525 MVt olan elektrik stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-in müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, mis emalı zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı, Texnoil MMC mühərrik yağları istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış 13 zavodu, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları, Aqrokimya Azərbaycan MMC tərəfindən pestisidlər istehsalı zavodu, "SOCAR Polymer" layihəsi çərçivəsində polipropilen zavodu istifadəyə verilmişdir. Yeni açılan müəssisələrin fəaliyyəti ölkə iqtisadiyyatına öz bəhrəsini verməkdədir.

Ötən il noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında Prezident İlham Əliyev Sumqayıtın sənaye şəhəri kimi bundan sonra da uğurla inkişaf edəcəyini bildirib: *"Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir.*

1949 **Sumqayıt - 70** 2019



# arzuladığı şəhərə çevrilib













*Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir. Sosial layihələr, infrastruktur layihələri, qazlaşdırma demək olar ki, yüz faiz səviyyəsindədir, içməli su 93 faiz səviyyəsindədir, yollar salınır, məktəblər tikilir, gözəl abadlıq işləri aparılır. Sumqayıt bulvarı yaradılıb, sakinlər üçün çox gözəl istirahət zonasıdır, "ASAN xidmət" mərkəzi, olimpiya kompleksi, xəstəxana istifadəyə verilib. Əlbəttə ki, Sumqayıt sənaye şəhəri kimi uğurla inkişaf edəcək. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəyik".*

Bu ilin əvvəlində Prezident İlham Əliyev iki dəfə Sumqayıta səfər edib. Yanvar ayının 16-da Prezident İlham Əliyevin Sumqayıta səfəri zamanı Kimya Sənaye Parkında inşa olunmuş, ildə 650-660 min ton karbamid və 1 milyon ton ammonyak istehsal etmək gücünə malik olan "SOCAR karbamid" zavodunun və fevral ayının 18-də ikinci dəfə şəhərə səfəri zamanı Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı Polietilen zavodunun açılışında iştirak etmişdir. Hazırda ölkədə qeyri-neft sektorunda ən böyük layihə olan müəssisələrin ümumi dəyəri təxminən 1 milyard 200 milyon avro təşkil edir. Zavodlarda 900 nəfər daimi işlə təmin edilmişdir. İstehsal həcminin 70 faizinin ixrac üçün nəzərdə tutulduğu müəssisələrin fəaliyyəti ölkəyə hər il 200 milyon dollar məbləğində vəsaitin daxil olmasına imkan yaradacaq. Ümumiyyətlə isə bu zavodların fəaliyyətə başlaması Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verəcək.

## Şəhərin yeni simasını müəyyən edən quruculuq

Ümumiyyətlə, Prezident İlham Əliyevin Sumqayıta hər səfəri zamanı verdiyi tövsiyə və tapşırıqların, sərəncamların icrası və həyata keçirilən genişmiqyaslı tədbirlər sənayedə olduğu kimi, həm də tikinti, abadlıq və quruculuq sahəsində əsaslı dönüş yaradıb. Ölkə rəhbərinin tövsiyələri, tapşırıqları və dəstəyi sayəsində yeni sosial obyektlərin tikintisi və təmiri, şəhərin memarlıq və dizayn baxımından müasir görkəmini saxlamaq şərti ilə irimiqyaslı layihələr icra olunub. Xüsusilə Prezident İlham Əliyevin tapşırığı və qayğısı sayəsində şəhərdə 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən başlayaraq abadlıq, quruculuq, yaşıllaşdırma sahəsində irimiqyaslı ünvanlı layihələrin icrasına başlanılıb və qısa müddətdə uğurla başa çatdırılıb.

İqtisadi və sosial sahədə inkişafı şərtləndirilən amillərdən biri kimi şəhərin müasir yol-nəqliyyat sisteminin qurulması diqqət mərkəzində saxlanılıb. Yol infrastrukturunun yaxşılaşdırılması, nəqliyyat vasitələrinin normal hərəkətinin təmin edilməsi və tıxac problemlərinin aradan qaldırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bunlardan biri şəhərin əsas giriş yolu olan Sülh küçəsinin 4,2 kilometr məsafədə hər iki tərəfə genişləndirilərək 90 min kvadratmetrə çatdırılmasıdır. Sumqayıtın ikinci giriş yolu olan Sahil küçəsi də 7,5 kilometr uzunluğunda yenidən qurulub, yolun eni 13 metrə çatdırılıb. Burada Corat qəsəbəsindən keçən hissədə sakinlərin istirahəti üçün park salınıb. Binəqədi-Novxanı-Sumqayıt yolu əsaslı təmirdən sonra açılıb və Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometr hissəsində yeni yolun təməli qoyulub. Prezident İlham Əliyev bu mərasimlərdə iştirak edib. Şəhərin Koroğlu küçəsində 4 kilometr, Səməd Vurğun küçəsində 9 kilometr, Nizami küçəsində 1,6 kilometr, Sərvər Bədəlbəyli küçəsində 0,8 kilometr, Heydər Əliyev küçəsində 1,8 kilometr uzunluğunda yeni asfalt örtüyü salınıb. Qurd Dərəsi yaşayış massivində 2,5 kilometr uzunluğunda yol hər iki tərəfə genişləndirilib, eni 8 metrə çatdırılaraq asfalt örtüyü təmir edilib.

Şəhərdə həyata keçirilən layihələrin bir qismi Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda reallaşdırılmışdır. Parkda yenidənqurma işləri aparılmış, ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilmiş, əhalinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Ərazidə yeni yaşıllıq zolağı salınmış, rəngli fəvvarələr kompleksi, Bayraq meydanı və uşaqlar üçün əyləncə mərkəzi inşa olunmuşdur.

Parkda sahəsi 5 min kvadratmetr olan 4 mərtəbəli Heydər Əliyev Mərkəzi inşa edilib, önündə Ulu Öndərin ağ mərmərdən heykəli ucaldılıb. Mərkəzdə onun həyat və fəaliyyətini əks etdirən muzey, 420 yerlik iclas, 50 yerlik konfrans, rəqs, sərgi və kompüter zalları, elektron kitabxana, xalçaçılıq dərnəyi, rəsm və linqafon otaqları, smart sinfi, foto və videostudiya, gənclər üçün diskussiya zalları fəaliyyət göstərir.

Ulu Öndərin adını daşıyan parkda müasir memarlıq üslubunda sahəsi 2950 kvadratmetr olan 735 yerlik 3 mərtəbəli Uşaq incəsənət məktəbi də tikilib. Məktəbdə 60 sinif otağı var. Burada 700-dən çox şagird təhsil alır və 200-dən artıq müəllim çalışır. Yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 1000 kvadratmetr olan ikimərtəbəli şahmat məktəbi də tikilib və müasir avadanlıqla təchiz edilib.

Sumqayıt Dövlət Dram Teatrı da əsaslı təmirdən sonra istifadəyə verilmiş, müasir avadanlıqlarla təchiz edilmiş, 500 yerlik tamaşa, 100 yerlik akt zalları, iş otaqları, işıqlandırma sistemi müasir üslubda yenidən qurulmuş, binanın qarşısındakı meydana 15 min kvadratmetr qranit daş döşənmiş, burada iki fəvvarə və monitor quraşdırılmışdır.

Yeni Azərbaycan Partiyasının Sumqayıt təşkilatının inzibati binası, Bayraq muzeyi, Gənclər mərkəzi, "ASAN xidmət" mərkəzi, Mərkəzi Bankın ehtiyat sistemi binası, 500 metr uzunluğunda tərsanə, şəhərin əsas giriş yolunda Bayraq meydanı, paralimpiya və olimpiya idman kompleksləri, əlillərin bərpa mərkəzi, şəhər prokurorluğunun binası da Sumqayıtın yeni ünvanlarıdır. Bunlardan başqa, son illərdə Sumqayıtın Tarix muzeyinin, 1 saylı şəhər mərkəzi xəstəxanasının, "Kimyaçılar" mədəniyyət sarayının, 1 saylı Uşaq-gənclər idman məktəbinin, 3 saylı Uşaq-gənclər şahmat-dama idman məktəbinin binaları əsaslı təmir olunmuşdur. Həmçinin əlillərin bərpa mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası tikilmiş, yüzlərlə çoxmənzilli yaşayış binasının dam örtükləri dəyişdirilmiş, 1660 şagird yerlik 5 məktəb binası, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbinin tədris korpusu tikilmişdir.

Onu da qeyd edək ki, indiyədək Sumqayıt şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi, avtomobil yollarının əsaslı təmiri işlərinin həyata keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən 15 sərəncam imzalanıb. Bunun da nəticəsində şəhərdə abadlıq və quruculuq işlərinin, o cümlədən şəhər təsərrüfatının möhkəmləndirilməsi tədbirlərinin daha sürətlə və keyfiyyətlə həyata keçirilməsi mümkün olub.

Bu gün şəhərin bütün ərazilərində tikinti-quruculuq işlərinin möhtəşəm nümunələrini görmək mümkündür. Bu işlər ünvanlı, konkret və məqsədyönlüdür. Diqqəti çəkən məqam ondan ibarətdir ki, abadlıq və quruculuq işlərinə daha çox şəhərin ucqarlarından, girişlərindən başlanılıb. İndi hansı istiqamətdən şəhərə daxil olsan binaların üzlənməsinin, onlara dam örtüklərinin vurulmasının, mövcud dam örtüklərinin yenilənməsinin, yolların genişləndirilməsinin şahidi olmaq olar.

Görülən işlər sakinlər tərəfindən müsbət qarşılanır və bu barədə onlar ürəkdolusu söhbət açırlar. Hər bir şəhər sakini aparılan və səngimədən davam etdirilən abadlıq və quruculuq işlərinin nəticəsində gündən-günə gözəlləşən şəhərdən, sözün əsl mənasında, zövq alır. Bu onun göstəricisidir ki, Prezident İlham Əliyevin tapşırığı ilə ölkə boyu aparılan abadlıq və quruculuq işləri burada da ən yüksək səviyyədə öz təzahürünü tapmaqdadır.

## Dünyanı heyran qoyan bulvar

Sumqayıt dəniz sahilində yerləşsə də, burada heç vaxt bulvar olmayıb. Zakir Fərəcovun şəhər icra hakimiyyətinin başçısı təyin olunmasından sonra həyata keçirilən kompleks abadlıq və quruculuq işlərinin bir istiqamətini də dəniz sahilində bulvarın salınması oldu. Beləliklə, cəmi bir neçə aya uzunluğu 4,2 kilometr, sahəsi 106 hektar olan yeni bulvar kompleksi ərsəyə gətirildi. Burada əhalinin istirahəti üçün bütün şərait yaradılıb, 55 hektar sahədə yaşıllıq zolağı, 160 mindən çox ağac və dekorativ kol, 2 milyon ədəd gül və çiçək əkilib, müasir avtomat suvarma sistemi qurulub.

Hələ iki il əvvəl Sumqayıtın yeni salınmış bulvarı İspaniyanın paytaxtı Madriddə keçirilən "Global Trade Leaders Club"un 24-cü Beynəlxalq üstünlük və liderlik forumunda "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülüb.

Xatırladaq ki, "Global Trade Leaders Club" dünya biznesini araşdıran 3 ən böyük beynəlxalq təsisatdan biridir. İspaniyanın hökumət nümayəndələrinin, müxtəlif ölkələrin səfirlik və konsulluq əməkdaşlarının, dünyanın tanınmış biznes strukturlarının rəhbərlərinin qatıldığı mərasimdə Sumqayıt bulvarının təqdimatı zamanı cəmi 8 ayda yaradılan və şəhər sakinlərinin ən çox üz tutduğu, sevimli istirahət məkanına çevrilən bulvarın möhtəşəm görüntüləri tədbir iştirakçılarını heyrətləndirib. Bu barədə danışan Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun sözlərinə görə, bulvarın salınması göstərir ki, Sumqayıt son illər müasir layihələr əsasında yenidən qurulur və regionun gözəl turizm məkanlarından birinə çevrilməkdədir. Möhtərəm İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır: "Şəhərdə abadlıq-quruculuq işləri bu gün də geniş miqyasda davam etdirilir. Sumqayıtda son bir neçə ildə görülmüş işlərin həcmi və miqyası son 20-25 ildə görülən işlərə bərabərdir. Bunun nəticəsidir ki, Sumqayıtın siması qısa müddətdə çox dəyişib, modern bir şəhərə çevrilib. İspaniyada qazanılan mükafat bütün Sumqayıtda və bu şəhərin timsalında Azərbaycanda gedən möhtəşəm abadlıq və tikinti işlərinin beynəlxalq səviyyədə qiymətləndirilməsidir. Ona görə bu, cənab İlham Əliyevin və Azərbaycanın uğurudur".

Sumqayıtda bu gün də həyata keçirilən quruculuq layihələrindən biri dənizkənarı bulvarın bir qədər də genişləndirilməsidir. Hazırda 4,2 kilometr uzunluğunda və 106 hektar sahəsi olan bulvarın ərazisi daha bir kilometr genişləndirilir. Genişləndirilən ərazidə 40 min kvadratmetr gəzinti zolağı, 16 metr enində yol və yaşıllıq zolağı salınıb. Bu yol Səməd Vurğun küçəsinə birləşdiriləcək. Bulvarın genişləndirilən ikinci hissəsi bu günlərdə əhalinin istifadəsinə veriləcək.

Dənizkənarı bulvar ərazisində inşa olunan muğam mərkəzində son tamamlanma işləri aparılır. Muğam mərkəzi iki mərtəbədən ibarətdir. Mərkəzin 400 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri keçirmək üçün hərtərəfli şərait yaradılacaq. Binada muğamın sirlərinə yiyələnmək üçün 14 sinif otağı nəzərdə tutulub.

## Sumqayıt özünün yeni inkişaf mərhələsini yaşayır

Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə həyata keçirilən işlərin nəticəsində Sumqayıt inkişaf edib, şəhərdə tamamilə yeni infrastruktur yaradılıb. Hansı ki, bu infrastruktur uzun illər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək. Ona görə bu gün Sumqayıt özünün yeni inkişaf mərhələsini yaşayır. Sumqayıtın bugünkü inkişafı göstərir ki, Heydər Əliyevin arzuları reallaşır, ideyaları həyata vəsiqə qazanır. Çünki Ulu Öndər Heydər Əliyev Sumqayıtı belə görmək istəyirdi. Prezident İlham Əliyevin "Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında" imzaladığı sərəncamında yazılır: "Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra Sumqayıt şəhəri özünün sosial-iqtisadi yüksəliş salnaməsini zənginləşdirməkdə davam etmişdir. Müvəffəqiyyətlə gerçəkləşdirilən dövlət proqramları və infrastruktur layihələri çərçivəsində Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı, həmçinin digər mühüm obyektlər qurulmuşdur. Şəhərin iqtisadi strukturuna daxil olan kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma və elektroenergetika, eləcə də yüngül sənaye sahələri qabaqcıl texnoloji avadanlıqla təchiz edilmişdir. Şəhər əhalisinin yaşayış səviyyəsi və həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir".

Bəli, bu fikirlər Sumqayıtın inkişafının bir neçə cümlə ilə əhatəli ifadəsidir. Sumqayıt həqiqətən, zəngin inkişaf və yüksəliş yolu keçərək yenidən ölkəmizin böyük sənaye mərkəzinə çevrilməyi bacarıb. İri müəssisələr şəbəkəsinin və müvafiq infrastrukturun formalaşması şəhərin mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə tərəqqisinə güclü təkan verib. Bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olan Sumqayıt qazandığı uğurları ilə Azərbaycanın iqtisadi qüdrətinin daha da artırılmasında yaxından iştirak edir, ölkənin mədəni və intellektual potensialının gücləndirilməsinə töhfələr verir.

Ona görə Sumqayıt özünün 70 illik yubileyini başıuca, inkişaf nəticəsində əldə olunan nailiyyətlərlə qeyd edir. İnkişaf isə sürətli və davamlıdır. Hər ötən gün Sumqayıtın həyatında mühüm yeniliklərin şahidi olursan. Cənab Prezidentin qayğısı və diqqəti şəhərin ictimai, sosial-iqtisadi həyatında rolu olan hər kəsi daha məsuliyyətlə və fədakarlıqla çalışmağa sövq edir. Ona görə qarşıdakı illər və növbəti yubileylər Sumqayıtın yeni və möhtəşəm uğurları ilə əlamətdar olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Akademik Ramiz Mehdiyev Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti ilə görüşüb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyev Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Roin Metreveli ilə görüşüb.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Gürcüstan Milli Elmlər akademiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə əlaqədar məsələlər müzakirə olunub.

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev ölkəmizdə dövlət səviyyəsində dost və qonşu Gürcüstanla əlaqələrə xüsusi diqqət yetirildiyini vurğulayıb.

Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Roin Metreveli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə görüşlərindən söz açıb, ictimai və humanitar elmlər sahəsində elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu bildirib.



# Dinlərarası dialoq zamanın tələbidir

## Azərbaycan bu işə mühüm töhfə verir

Əvvəli 1-ci səh.

Tarixi təcrübə sübut edir ki, dini-milli tolerantlıq ölkəmizdə həm həyat tərzi, həm də dövlət siyasətidir.

Bu baxımdan dünya dini liderlərinin 2010-cu ildə Bakıda keçirilmiş ilk sammiti tarixi hadisə kimi yadda qaldı. Ötən həftə isə dini liderlər Azərbaycan paytaxtında yenidən bir araya gəlib mövcud vəziyyəti müzakirə etdilər. Dünya dini liderlərinin II Bakı Sammitində planetin 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini məzhəbin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksəksəviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak edirdilər. Zirvə görüşü Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanıb həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfəsinin məntiqi davamı idi.

Azərbaycan dövlətinin dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqinə öz töhfəsini vermək məramı ilə evsahibliyi etdiyi Dünya dini liderlərinin II Zirvə görüşündə müasir dövrün insanlararası münasibətlər sistemində ən aktual problemlərinə toxunuldu. Nəzərə çarpdırıldı ki, XXI əsrdə təcavüz, zorakılıq və ayrı-seçkiliyə təhrik edən nifrət çağırışları ictimai təhlükəyə çevrilməkdədir. Təəssüflər olsun ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı mənfi fəsadlar da doğurmuşdur: sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində nifrət məzmunlu çağırışlar genişmiqyaslı sistemə çevrilir. Sammitdə belə bir təhlükəli təzahürün vüsət almasının qarşısını almaq üçün səylərin birləşdirilməsinin vacibliyi vurğulandı. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə nifrətə çağırış probleminin fəsadlarını və ictimai təhlükəsini nəzərə alaraq BMT və KAICIID Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Dialoq Mərkəzi və Bakı Dinlərarası Əməkdaşlıq Mərkəzinin birgə təşkilatçılığı ilə "Qlobal nifrət çağırışları ilə mübarizədə din, siyasət və ictimaiyyət xadimlərinin birgə səyləri" mövzusunda gələcəkdə beynəlxalq konfrans keçirmək təşəbbüsü ilə çıxış etdi və bu təklif alqışlandı.

Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçıları planetin bir sıra regionlarında səngiməyən münaqişələrin və terror aktlarının doğurduğu insanlıq faciəsinə münasibət bildirdilər. Belə bir məqam təəssüflə qeyd olundu ki, ənənəvi dəyərlərin böhranı təxribatçılar və ekstremistlər üçün geniş meydan açır. Ona görə də dini liderlər ekstremizmi rədd etməklə kifayətlənməməli, cəmiyyətdə müqəddəs kitablara əsaslanan sarsılmaz dəyərləri, ailəni, nikahı, böyüklərə hörməti, dinə hörməti, insanın dini seçimini, iztirab çəkənlərə və kimsəsizlərə dəstəyi tərbiyə etməlidirlər. Bu ideyalar inandırıcı nümunələrlə möhkəmləndirilib informasiya məkanında geniş təbliğ olunmalıdır.

Sammitdə vurğulandı ki, dini liderlər dünyanın siyasi liderlərinə müraciət edərək siyasi vəzifələri zəif dövlətlərin hesabına həll etməyi dayandırmağın vacibliyini bildirməli, onlara xatırlatmalıdırlar ki, dünya ölkələrini birinci, ikinci və üçüncü dərəcələrə bölmək praktikasından əl çəkməyin vaxtıdır, daha inkişaf etmiş və varlı dövlətlər bəşəriyyətin taleyinə görə məsuliyyətlərini dərk etməlidir.

Dünya dini liderlərinin dilindən Bakıda səsləndirilmiş çağırışlar fövqəladə əhəmiyyət kəsb edir. Sammit zamanı planetin ayrı-ayrı regionlarında terrorizmin, dini və etnik zəmində dözümsüzlüyün artması, terrorçu və ekstremist qruplaşmalar tərəfindən dini dəyərlərin məqsədyönlü şəkildə təhrif olunması, mədəni, dini və tarixi irsin, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və dini abidələrin dağıdılmasından dərin narahatlıq ifadə olundu. Zirvə görüşü zamanı Yer kürəsində cərəyan edən arzuolunmaz prosesləri dayandırmaq üçün din xadimlərinin üzərinə düşən vəzifə Azərbaycan paytaxtında bir daha diqqətə çatdırıldı. Ümid edək ki, dini liderlərin çağırışları reaksiyasız qalmayacaq, susmuş vicdanlarda əks-səda doğuracaq.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Məzəm, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Mərzili, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Cəlil Məmmədquluzadənin 150 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib

Noyabrın 18-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, konfrans Mədəniyyət Nazirliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami adına Ədəbiyyat İnstitutu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə reallaşıb.

Konfrans çərçivəsində Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdiyi "Cəlil Məmmədquluzadə. Biblioqrafiya" kitabı və "Cəlil Məmmədquluzadə - 150" elektron məlumat bazasının təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək konfransın əhəmiyyətindən söz açıb. Deyib ki, konfransda Bolqarıstan, Polşa, Türkiyə, Özbəkistandan dəvət olunmuş Cəlil Məmmədquluzadə tədqiqatçıları iştirak edir. Qeyd edib ki, konfransda həm də böyük ədibin nəslinin davamçıları - nəticəsi Martin Cavanşiri və kötükcəsi Przemislav Cavanşiri də iştirak edirlər. Mənə elə gəlir ki, onların ulu babalarının vətəninə gəlməsi xalqımızın həyatında böyük hadisədir. Mən inanıram ki, onlar bundan sonra tez-tez Azərbaycana gələcək və xalqımızın Cəlil Məmmədquluzadə irsinə necə böyük sayğı ilə yanaşdığına daha yaxından şahid olacaqlar".

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Cəlil Məmmədquluzadənin yaratdığı "Molla Nəsrəddin" satirik jurnalının cəmiyyətin maariflənməsində böyük rol oynadığını diqqətə çatdırıb. Qeyd edib ki, bu jurnalla Cəlil Məmmədquluzadə eyniadlı məktəbin əsasını qoyub. O, publisistik fəaliyyəti ilə yanaşı, Azərbaycan ədəbiyyatını özünün şedevr əsərləri ilə zənginləşdirib. Onun dram əsərləri həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirməkdə əvəzolunmaz mənbələrdir.

Nazir müavini C.Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək məqsədilə həm sovet dövründə, həm də müstəqillik illərində bir çox addımlar atıldığını vurğulayıb. Bildirib ki, Cəlil Məmmədquluzadənin 100 illik yubileyi dünya miqyasında qeyd olunub: "Onun adına küçə, muzey, teatr, təhsil müəssisəsi var. Bu il Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyət işçiləri ilə görüşündə də yazıçı Anar Bakıda Cəlil Məmmədquluzadəyə heykəl qoyulmasını təklif edib. Hazırda bu istiqamətdə işlər görülür. Hesab edirəm ki, bu konfrans da Cəlil Məmmədquluzadə irsinin öyrənilməsinə böyük töhfə verəcək".

Vaqif Əliyev Cəlil Məmmədquluzadənin 150 illiyinin ölkə daxilində və onun hüdudlarından kənarda silsilə tədbirlərlə qeyd olunduğunu vurğulayıb. Söyləyib ki, Mədəniyyət Nazirliyi dövlət başçısının müvafiq sərəncamı əsasında ədibin xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlər keçirib.

Sonra C.Məmmədquluzadənin həyat və yaradıcılığından bəhs edən sənədli film nümayiş olunub.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək bəzən Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir və başqaları haqqında naqis fikirlər səsləndirildiyini söyləyib: "Guya bu adamlar Azərbaycan xalqını tənqid ediblər. Onlar bu xalqı ona görə tənqid ediblər ki, xalqımız cəhalətdən qurtulsun, onu əsarətdə saxlayan buxovları qırsın, dünyanın digər xalqları ilə bərabər ola bilsin. O baxımdan biz Mirzə Cəlilin də nə qədər əhəmiyyətli olduğunu görürük".

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli isə Mirzə Cəlilin uzaqgörən yazıçı kimi xalqımızı bu gün yaşadığımız şəkildə görmək istədiyini qeyd edib. O, bu yolda tənqid, təhqir olunsa da öz əqidəsindən dönməyib. Onun 1917-ci ildə çap etdirdiyi məşhur "Azərbaycan" məqaləsi üstündən 100 il keçməsinə baxmayaraq bu gün də bizim azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. O, sözün əsl mənasında Azərbaycanın milli istiqlalına şərəflə xidmət edib".

Qeyd edilib ki, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalındakı XX əsrin əvvəllərinin bütün ədəbi mühitinə təsir göstərən əsərlərində, hekayə, povestlərində, pyes, felyeton, məqalə və məktublarında həmin dövr Azərbaycan həyatının bütün aktual siyasi-ictimai problemlərini əhatə edib. Diqqətə çatdırılıb ki, 1994-cü ildə ustad ədibin 125 illik yubileyinin keçirilməsinə, əsərlərinin yenidən nəşr və tədqiqinə Ümummilli Lider Heydər Əliyevin böyük diqqəti və qayğısı ayrıca xatırladılmalıdır. Ulu Öndər Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda, ümumbəşəri dəyərləri əks etdirən fikirlərin milli ideologiyamızın əsası olduğunu deyirdi.

Tədbirin Prezident İlham Əliyevin müvafiq sərəncamı əsasında təşkil olunduğunu deyən akademik konfransın işinə uğurlar arzulayıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək görkəmli ədibin Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərindən söz açıb, yaradıcılığının elmi-fəlsəfi əhəmiyyətindən bəhs edib. O deyib ki, bu il ölkəmizdə türk dünyasının görkəmli şəxsiyyətlərinin yubileylərinə həsr edilmiş çoxsaylı tədbirlər keçirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə bu istiqamətdə həm ölkə daxilində, həm də ölkə xaricində tədbirlər təşkil olunub. "Toplaşdığımız bugünkü konfrans da bu qəbildəndir. Cəlil Məmmədquluzadənin əsərləri, yaradıcılığı haqqında hər şeydən öncə bir oxucu kimi danışaraq onun istedadını xüsusi qeyd eləmək istəyirəm. Düşünürəm ki, onun adını çəkəndə hər birimizin üzündə təbəssüm yaranır. Bu təbəssüm onun felyetonlarını xatırladır. Mənim aləmimdə ədibin "Ölülər" əsəri dünya miqyaslı əsərdir. Onun bütün əsərləri insanları cəhalətdən, nadanlıqdan xilas olmağa səsləyir".

Sonra TÜRKSOY tərəfindən C.Məmmədquluzadənin nəslinin davamçılarına hədiyyələr təqdim olunub, qonaqlar "Cəlil Məmmədquluzadə. Biblioqrafiya" kitabı və "Cəlil Məmmədquluzadə - 150" elektron məlumat bazası ilə tanış olublar.

# Cəlil Məmmədquluzadənin ev-muzeyinin təmirdən sonra açılışı olub

Noyabrın 18-də görkəmli yazıçı-dramaturq, publisist, naşir, ictimai xadim Cəlil Məmmədquluzadənin Bakıdakı ev-muzeyinin əsaslı təmirdən sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət rəsmiləri, millət vəkilləri, yazıçının nəticəsi Martin Cavanşiri və onun oğlu Przemislav Cavanşiri, elm, ədəbiyyat və mədəniyyət xadimləri iştirak ediblər.

Çıxışçılar görkəmli ədibin ömür yolundan söhbət açıblar, sonra qırmızı lent kəsilib və qonaqlar muzeyi ziyarət ediblər.

Xatırladaq ki, C.Məmmədquluzadənin 1922-1932-ci illərdə Süleyman Tağızadə küçəsi, 56-da (Köhnə Poçt küçəsi, 64) yaşadığı mənzil Azərbaycan hökumətinin 1978-ci ildə verdiyi qərarla ev-muzey kimi təşkil edilib. Muzeyin yerləşdiyi bina XIX əsrin axırları, XX əsrin əvvəllərinə aid tarixi memarlıq və mədəniyyət abidəsidir. Görkəmli ədibin ev-muzeyinin yeni ekspozisiyasının açılışı 1994-cü il dekabrın 28-də - anadan olmasının 125 illiyi ərəfəsində gerçəkləşib.

Sahəsi 185 kvadratmetr olan muzey 5 zaldan ibarətdir. Mədəniyyət ocağının əsas fondunda ədibin və digər mollanəsrəddinçilərin həyat və yaradıcılığını əks etdirən 5 mindən çox eksponat toplanıb.

# Cəlil Məmmədquluzadənin 150 illik yubileyi qeyd edilmişdir





AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialında görkəmli nasir, qüdrətli dramaturq, vətəndaş-publisist, azərbaycançılıq ideologiyasının yaradıcılarından biri, "Molla Nəsrəddin" ədəbi məktəbinin, tənqidi realizmin banisi kimi geniş şöhrət qazanmış görkəmli yazıçı və tanınmış ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi münasibətilə tədbir keçirilmişdir.

Tədbirin aparıcısı AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı görkəmli yazıçı və maarifçi Cəlil Məmmədquluzadənin Azərbaycan ədəbiyyatı tarixində həm publisist, həm də böyük dramaturq və nasir kimi tanınmasından danışmışdır.

Tədbirdə Kürdəmir şəhər 6 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi Flora Əliyeva məruzə edərək Azərbaycanın milli dramaturgiyası tarixində Mirzə Fətəli Axundzadədən sonra ən layiqli yerlərdən birini tutan Cəlil Məmmədquluzadənin yaradıcılığının mühüm bir hissəsini təşkil edən dram əsərlərindən, onun pyeslərində yaşadığı dövrün real hadisələrini olduğu kimi təsvir etməsindən, adi ailə-məişət məsələlərini əyani və bədii şəkildə ustalıqla qələmə almasından bəhs etmişdir.

Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığından bəzi məqamları əks etdirən qısa sənədli filmin nümayişindən sonra söz Kürdəmir şəhər 6 saylı tam orta məktəbin şagirdlərinə verilmişdir. Məktəblilər ədibin "Müsəlman", "Tapmaca", "Bizim obrazovannılar", "Sizi deyib gəlmişəm" felyetonlarını, "Nə bilim", "Şapkanı görəndə", "Nağıl", "Dedilər" satirik şeirlərini söyləmişlər.

Şagirdlərin "Ölülər", "Anamın kitabı" dram əsərlərindən hazırladıqları səhnəciklər tamaşaçıların alqışları ilə qarşılanmışdır.

Ədibin "Ölülər", "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu" əsərləri əsasında çəkilmiş filmlərdən epizodların nümayişi yubiley tədbirini daha da rövnəqləndirdi.

Tədbirin sonunda Yaqut Bahadurqızı dövlətimizin Cəlil Məmmədquluzadə şəxsiyyətinə və yaradıcılığına verdiyi yüksək dəyərdən söz açmış, ölkə Prezidentinin yazıçının 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamasının buna bariz nümunə olduğunu qeyd etmişdir.

***Tofiq ABDULLAYEV***

# Kənd təsərrüfatı məhsullarının istehsalı artır, keyfiyyəti yüksəlir

## Xaricdən gələn sifarişlərin çox hissəsi bu sektora aiddir

Əvvəli 1-ci səh.

Bundan başqa, fermerlərə istifadə etdikləri toxuma, gübrəyə, damazlıq heyvanlara və tinglərə görə də müəyyən güzəştlər edilir. Dövlət başçısının qeyd etdiyi kimi, dünyada fermerlərə Azərbaycan qədər güzəşt edən ikinci bir ölkə yoxdur.

Prezident İlham Əliyev oktyabrın 15-də sosial-iqtisadi sahəyə həsr olunan müşavirədə aqrar sektora göstərilən dövlət dəstəyini qeyd edərək demişdir: "Bununla bərabər, bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulmuşdur. Kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilmişdir...

Hazırda bu sahədə ciddi irəliləyiş müşahidə olunur. Beləliklə, kənd təsərrüfatı doqquz ayda 7 faiz artmışdır".

Digər sahələrə olduğu kimi, aqrar sektora da böyük kapital qoyuluşu həyata keçirilir. Bu məqsədlə ölkə üzrə bu sektorla bağlı yeni aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər görülür. Məqsəd aqrar sektorda yüksək keyfiyyətli məhsul istehsal etmək, həm də bu sahədə məhsuldarlığı artırmaqdır. Ölkə üzrə 51 aqroparkın yaradılması nəzərdə tutulur. Hazırda 22 aqropark fəaliyyətdədir, cari ilin sonunadək daha 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələri icra etmək üçün 2,4 milyard manat investisiya qoyulması nəzərdə tutulur.

Son dövrlər aqrar sektorda yeni texnika və texnologiyaların tətbiqinə də böyük önəm verilir. Odur ki, məhsuldarlıq artır, maya dəyəri aşağı düşür. Bunun nəticəsidir ki, cari ildə taxılçılıqda məhsuldarlıq 30 faizdən çox olub. Ötən illərdə həmin rəqəm 20 sentner civarında idi. Xüsusilə qeyd etmək lazımdır ki, müasir texnika və texnologiyalardan, o cümlədən suvarma sistemlərindən istifadə edən aqropark və iri fermer təsərrüfatlarında bu rəqəm 60 faizdən çoxdur.

Taxıl istehsalında ərzaq təhlükəsizliyi mühüm rol oynayır. Ölkə üzrə ən çox istifadə edilən ərzaq məhsulu da buğdadan hazırlanan çörəkdir. Qeyd edək ki, taxıl əkini ilə məşğul olan fermerlərə daha çox güzəştlər edilir. Cari ildə 1 milyon 12 min hektar sahədə taxıl əkininin həyata keçirilməsi bunun nəticəsidir. Əkinin 670 hektarını buğda, 342 min hektarını arpa təşkil edib. Bu da dövlətin taxılçılıqla məşğul olan fermerlərə edilən güzəştlər sayəsində mümkün olub.

Kənd təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də ciddi işlər görülür. İndiyədək ölkə üzrə fermerlərə minlərlə müxtəlif təyinatlı kənd təsərrüfatı texnika və avadanlığı satılıb. Cari ilin 6 ayında 700-dən çox texnikanın fermerlərə satışı təmin edilib. Bununla yanaşı, müasir texnologiyalar və suvarma sistemləri ilə təminata da diqqət yetirilir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-sentyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6273,8 milyon manat təşkil etmişdir ki, onun 2966,5 milyon manatı heyvandarlıq, 3307,3 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 7,1 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,1, bitkiçilik məhsulları üzrə 11 faiz artıb.

Kənd təsərrüfatının inkişafı ixracatda da özünü göstərir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayında alkoqollu və alkoqolsuz içkilərin ixracı 85, pambıq lifliyin ixracı 38, pambıq ipliyinin ixracı 32, meyvə-tərəvəzin ixracı 14, şəkər ixracı 12 faiz artıb.

Azexport.az portalına gələn sifarişlərin çox hissəsi kənd təsərrüfatı məhsullarına aiddir. Belə ki, cari ilin sentyabr ayında daxil olan ixrac sifarişlərinin çox hissəsi tütün, toyuq əti və yumurtası, fındıq ləpəsi, pambıq yağı, şərab, nar, soğan, sarımsaq, meyvə konsentratı, təzə meyvə, mürəbbə, süd məhsullarıdır.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində fotoqraf Yakov Xalipin əsərlərindən ibarət sərgi açılıb





Noyabrın 18-də Heydər Əliyev Mərkəzində tanınmış fotoqraf, sovet fotoqrafiyasının klassiki Yakov Xalipin əsərlərindən ibarət "Avanqard davamçısı. Azərbaycan gündəliyi" adlı sərgi açılıb.




AZƏRTAC xəbər verir ki, Bakıda ilk dəfə keçirilən bu sərgi Moskvadakı Lümyer qardaşları adına Fotoqrafiya Mərkəzi ilə birgə təşkil olunur.

Tədbirdə çıxış edən jurnalist, tərcüməçi, fotoqrafın oğlu, onun arxivinin varisi Nikolay Xalip sərgidən böyük zövq aldığını söyləyib. Qeyd edib ki, Heydər Əliyev Mərkəzi möhtəşəm bir məkandır. O, sərginin açılması ideyasını alqışlayıb və təşkilatçılara öz dərin minnətdarlığını bildirib. "Ümid edirəm ki, ziyarətçilər də sərgidən mənim qədər zövq alacaqlar" deyə N.Xalip bildirib.

Ekspozisiyada müəllifin 1930-1960-cı illərdə çəkdiyi 100-dən çox ən maraqlı fotolarından ibarət kolleksiyası təqdim edilib.

Sərgidə Yakov Xalipin sovet fotoqrafiya sənətinin klassikası sayılan işləri ilə yanaşı, müəllifin Azərbaycanda çəkdiyi fotoları da ilk dəfə nümayiş olunub.

Ekspozisiyada Yakov Xalipin sovet fotoqrafiyasının "qızıl fond"una daxil olan işləri, həmkarı və müəllimi Aleksandr Rodçenko ilə birlikdə çəkdiyi fotolar, jurnallar üçün olan əsərləri və s. yer alıb. Sərgidə Yakov Xalipin qəhrəman papaninçilərin "Şimal Qütbü-1" Arktik stansiyasından xilas edilməsi üzrə ekspedisiyadan, şair Konstantin Simonovla birlikdə keçdiyi Böyük Vətən müharibəsi illərindən, Sovet İttifaqında və digər ölkələrdə müharibədənsonrakı dövrü əhatə edən fotoreportajları da nümayiş olunub.

Heydər Əliyev Mərkəzindəki sərgidə, həmçinin Yakov Xalipin ailəsinə aid olan arxivdən eksponatlar yer alıb. Eyni zamanda, fotoqrafa aid müxtəlif sənədlər, teleqramlar, 1930-cu illərə aid açıqcalar, Yakov Xalipin fotoşəkillərinin olduğu nadir kitablar, jurnallar, fotoqrafın yaratdığı tematik albomlar, üzərində çalışdığı kitablar və s. təqdim edilib.

Sərgi 2020-ci il martın 29-dək davam edəcək.

# Bir əsrin xəzinəsi




Müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yaradılan və Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universitetinin təsis edilməsinin 100-cü ildönümüdür. 100 il ərzində zəngin inkişaf yolu keçən BDU haqqında indiyədək yüzlərlə kitab nəşr edilib.

Bu günlərdə isə AMEA Fəlsəfə İnstitutu Elmi Şurasının iclasında universitetin 100 illik yübileyi ilə əlaqədar olaraq daha bir tədqiqat əsərinin müzakirəsi aparılıb və kitab çapa tösiyə olunub. Fəlsəfə İnstitutunun doktorantı, siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məliklinin müəllifi olduğu "Bir əsrin xəzinəsi - Bakı Dövlət Universiteti 100 il" kitabında Şərqin ilk ali təhsil ocağı olan BDU-nun 100 illik tarixi dövrü, keçdiyi şərəfli yol araşdırılıb. Bakı Dövlət Universitetinin böyük potensialı, inkişaf istiqamətləri, dünya təhsil sisteminə inteqrasiyası, fakültələri, elmi tədqiqatların və texnologiyaların tətbiqi, məzunları haqqında geniş məlumat verilir.

Tədqiqat əsərində Azərbaycanın Avropa tipli ilk ali təhsil ocağının yaradılması ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin atdığı addımlar, Bakıda universitet yaradılması ilə bağlı parlamentdə aparılan gərgin müzakirələr də yer alıb. Eyni zamanda universitetin rektorlarının taleləri haqqında da məlumat verilir.

Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin universitetlə bağlı dəyərli fikirləri, çıxışları, bu təhsil ocağının yubiley mərhələlərində iştirakları ətraflı göstərilir.

Dahi şəxsiyyət Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin banisi kimi çoxşaxəli fəaliyyətinin nəticəsi olaraq Bakı Dövlət Universitetinin inkişafı, mühüm məqamları təhlil edilir. Prezident İlham Əliyevin həmin siyasi kursu uğurla, yaradıcılıqla davam etdirməsi məsələləri bilavasitə araşdırılır.

Kitab müəllimlər, tədqiqatçılar, doktorantlar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Kitabla bağlı fikirlərini bölüşən müəllif yazır: "Yazdığım bu kitab qazandığım bütün uğurlarımda ana nəvazişi kimi əziz saydığım müqəddəs elm məbədimiz olan Bakı Dövlət Universitetinin 100 illik yubileyinə bir övlad borcumdur. Mən də Bakı Dövlət Universitetinin minlərlə məzunlarından biri kimi bu müqəddəs elm məbədi qarşısında bir övlad məhəbbəti ilə baş əyərək deyirəm: 100 yaşın mübarək, şanlı universitetim!"

Azərbaycanın tanınmış yazıçı-publisistlərinin, deputatların, siyasi elmlər doktorlarının Bakı Dövlət Universiteti ilə bağlı xatirələrinin yer aldığı kitabın elmi məsləhətçisi Milli Məclisin deputatı, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovdur. Rəyçilər isə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hadi Rəcəbli, AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə, Milli Məclisin deputatı, yazıçı-publisist Hüseynbala Mirələmov və fəlsəfə elmləri üzrə elmlər doktoru, professor İzzət Rüstəmovdur.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Baki Şəhər İcra Hakimiyyəti "Kompyuter avadanlığının satınalınması" ilə əlaqədar *açıq tenderə dəvət edir:*

**Lot - 1 Kompyuter avadanlığının satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**Lot - 1: 50 AZN**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**H/H: AZ92CTRE00000000000002518331**
**VÖEN: 1700109031**
**BANK: Dövlət Xəzinədarliği Agentliyi**
**KOD: 210005**
**VÖEN (bank): 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**
**BSK: 7 BTK: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər

1. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 10.12.2019 12:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 17.12.2019 12:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.12.2019 12:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

*E-şərtlər toplusunu 19.11.2019 12:00 tarixindən sonra əldə edə bilərsiniz*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi tərəfindən 31 oktyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə inventarın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "Qardaşlar Mebel-3" MMC olmuşdur.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə quyu qapaqlarının (lüklər) satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az- dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumat əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 1 (bir) müqavilə) və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 dekabr 2019-cu il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **19 dekabr 2019-cu il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **20 dekabr 2019-cu il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləckdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri Xəzər rayonunda yeni açılacaq DOST mərkəzi üçün elektrik təchizatını fasiləsiz təmin etmək məqsədilə generatorun satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 26 noyabr 2019-cu il saat 15:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 26 noyabr 2019-cu il saat 16:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Hesablama texnikası və periferiya qurğuları"nın satın alınması üzrə keçirilmiş kotirovka sorğusunda "Bakinity Distribution" Məhdud Məsuliyyətli Cəmiyyətin qalib olduğu, "Azərbaycan" qəzetinin 11.11.2019-cu il tarixli sayında dərc edilmiş elanda "Təkliflər sorğusu" "Kotirovka sorğusu" kimi oxunsun.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

29 avqust 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanlarına "Dəftərxana və təsərrüfat malları"nın satın alınması üzrə keçirilmiş açıq tenderdə "NUR-SS" MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələrinə "Digər maşın və avadanlıqlar"ın satın alınması məqsədilə 24 sentyabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və qalib "Lotus CO" MMC müəyyən edilmişdir. Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Təhsil" Respublika İdman Mərkəzi təlimlərin keçirilməsi, uşaq-gənclər idman məktəbləri üçün tədris proqramlarının hazırlanması və tərtibat işlərinin satın alınmasının təşkil olunması üzrə *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
**LOT 1 -** Tədbirlərin təşkili

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər bir LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, H.Əliyev pr. 58 (Əlaqələndirici şəxs: B.Qarayev, telefon: 012 567-04-56) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**LOT 1 - 100 manat**

**Adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555911**
**H/H: AZ31CTRE00000000000002167707**
**"Təhsil" Respublika İdman Mərkəzi**
**VÖEN: 1500368371**
**Xəzinə Hesab Kitab nömrəsi: 003104/2167707**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 dekabr 2019-cu il saat 12:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 dekabr 2019-cu il saat 10:00-a** qədər Bakı şəhəri, H.Əliyev pr.58 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 dekabr 2019-cu il saat 12:00-da** Bakı şəhəri, H.Əliyev pr.58 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

22.10.2019-cu il tarixli elanın nəzərə alınmaması xahiş edilir və bildirilir ki, “50 MB” günlük internet paketinə ümumi şərtlər ilə abunəlik aktiv edilə bilər.



## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.11.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.


# Bakı Turizm İnformasiya Mərkəzi 2019-cu ildə tədbirin keçirilməsi ilə əlaqədar

## *açıq tender elan edir*

**LOT 1. Tədbirin keçirilməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilə il ərzində yerinə yetiriləcəkdir.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 70 ünvanında yerləşən Tender komissiyasından ala bilərlər.

Əlaqələndirici şəxs: Həsənova Aybəniz, telefon: 012 498-12-44, əlavə 18.

**LOT-1 - 150 (bir yüz əlli) manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Turizm İnformasiya Mərkəzi**
**Hesab: AZ91CTRE00000000000008498302**
**VÖEN: 1700675651**
**Adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000003003944**
**S.W.I.F.T.BİK CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi;*
- *iddiaçıların tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış;*
- *işlərin yerinə yetirilməsi üçün potensial imkanları haqqında məlumat;*
- *vergi və digər borcların olmaması barədə arayış.*

Qeyd olunmuş ilkin sənədlər **06 dekabr 2019-cu il** tarixədək təqdim olunmalıdır.

Tender təklifi isə möhürlənmiş ikiqat zərfdə **16 dekabr 2019-cu il saat 17:00-dək** təqdim olunmalıdır.

Təklif zərfləri **17 dekabr 2019-cu il 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bakı Turizm İnformasiya Mərkəzi 2019-cu ildə məlumat lövhələrinin hazırlanması ilə əlaqədar

## *açıq tender elan edir*

**LOT 1. Məlumat lövhələrinin hazırlanması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilə il ərzində yerinə yetiriləcəkdir.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 70 ünvanında yerləşən Tender komissiyasından ala bilərlər.

Əlaqələndirici şəxs: Həsənova Aybəniz, telefon: 012 498-12-44, əlavə 18.

**LOT-1 - 150 (bir yüz əlli) manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Turizm İnformasiya Mərkəzi**
**Hesab: AZ91CTRE00000000000008498302**
**VÖEN: 1700675651**
**Adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000003003944**
**S.W.I.F.T.BİK CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi;*
- *iddiaçıların tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış;*
- *işlərin yerinə yetirilməsi üçün potensial imkanları haqqında məlumat;*
- *vergi və digər borcların olmaması barədə arayış.*

Qeyd olunmuş ilkin sənədlər 06 dekabr 2019-cu il tarixədək təqdim olunmalıdır.

Tender təklifi isə möhürlənmiş ikiqat zərfdə 16 dekabr 2019-cu il saat 17:00-dək təqdim olunmalıdır.

Təklif zərfləri 17 dekabr 2019-cu il 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Lənkəran Dövlət Universiteti

## *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

**LOT 1.** Qazanxana və camaşırxananın cari təmiri

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 nömrəli ünvanda ala bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu, telefon: (025) 255-14-80**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50. Faks: (025) 255-27-86; www.lsu.edu.az: office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 dekabr 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 16 dekabr 2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 dekabr 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

## *açıq tender elan edir*

**Tender** etender.gov.az **saytında Portal vasitəsilə keçirilir.**
**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri. Az 1022, S.Vurğun küçəsi, 135**

**Tender 5 (beş) LOT üzrə keçiriləcəkdir.**

**LOT 1.** Daxil olan və göndərilən sənədlərin elektron qaydada idarəedilməsi, elektron açarla imzalanması, təsdiq edilməsi və digər funksionallıqları həyata keçirməyə imkan verən proqram təminatının satın alınması.
**İştirak haqqı: 100 manat**

**LOT 2.** Tapşırıqların idarəedilməsi (Task management) proqram təminatının satın alınması.
**İştirak haqqı: 50 manat**

**LOT 3.** Vətəndaşlara dövlət büdcəsinin strukturu, büdcə siyasətinin prinsipləri, icmal və dövlət büdcələrinin proqnoz göstəriciləri, dövlət borcunun idarə edilməsi ilə bağlı məlumatlara real vaxt rejimində çıxış imkanı verən portalın hazırlanmasının satın alınması.
**İştirak haqqı: 100 manat**

**LOT 4.** Nazirliyin bir sıra sistemlərinin test mühiti üçün zəruri olan yaddaş qurğusu server avadanlıqlarının satın alınması.
**İştirak haqqı: 100 manat**

**LOT 5.** Maliyyə Nazirliyinin inzibati binasındakı nasosxana və qazanxananın, habelə orada quraşdırılmış avadanlıqların təmiri və yenilərinin satın alınması
**İştirak haqqı: 150 manat**

Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən iddiaçılara iştirak haqqı aşağıda göstərilən hesaba ödənildikdən sonra Portal vasitəsilə təqdim ediləcəkdir:

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**A1. Benefisiar (alan) bank**
**Adı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. BİK: CTREAZ22**
**B2. Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Hesab №: AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7,**
**Büdcə təsnifat kodu - 142340.**
**VÖEN: 1400108191**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün Portal vasitəsilə müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (notarial qaydada təsdiq edilmiş), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ixtisas göstəricilərinə dair Portalın müvafiq bölmələrində tələb olunan sənədlər;*
- *əsas şərtlər toplusu üzrə Portalın ixtisas göstəriciləri bölümündə tələb olunan digər sənədlər;*
- *Portalın texniki meyarlar bölümündə təyin edilmiş meyarların cavablarını əks etdirən və onları təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq mallar üzrə (əgər proqramın yaranması zamanı ehtiyac olarsa) mənşə və uyğunluq sertifikatları;*
- *yekun tender təklifi (texniki və qiymət təklifi daxil olmaqla tender təklifi qiymətinin 1 faizi həcmində təklifin təminatı (bank zəmanəti) ilə birlikdə).*

Təqdim edilən sənədlər əsas şərtlər toplusuna əlavə edilmiş formalara uyğun olmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **07 dekabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17 dekabr 2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18 dekabr 2019-cu il saat 11:00-da** açılacaqdır.

Tenderlə əlaqədar suallar və sorğular, əsas şərtlər toplusunun izahı üzrə (sual-cavab bölümündə) əlaqələndirici şəxslə Portal vasitəsilə əlaqə saxlamaq olar.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Rusiya Elmlər Akademiyasının müxbir üzvü Elmar Musayevə atası

**RASİM MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri: Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov və İsa Hüseynov Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İxtiyar Hüseynli və Rəşad Cəfərli Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Əzizov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyevə atası

**CABBAR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi İlham Məmmədova bacısı

**TƏRANƏ KƏRİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rahim və Nazim Hüseynovlar ailələri ilə birlikdə Hüseynbala Mirələmova və Tofiq Abdullayevə əzizləri

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8909
Sifariş 3827
Qiyməti 40 qəpik